Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

13
MART
2020-ci il
№ 45 (4176)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# OPERATİV QƏRARGAH AZƏRBAYCANDA VİRUSDAN ZƏRURİ MÜDAFİƏ TƏDBİRLƏRİNİ SƏRTLƏŞDİRDİ - İRANLA SƏRHƏDİ BAĞLAMA MÜDDƏTİ UZADILDI, «ASAN VİZA» VERİLİŞİ DAYANDIRILDI...

*DİN və Baş Prokurorluq da məlumat yaydı*

■ səh. 4 ■

**Prezident Əliyev dünyaya min kilometrlərlə uzunluğu olan "yeni nəqliyyat dəhlizinin" mesajını verdi...**

■ səh. 5 ■

**Prezidentin Qarabağ məsələsində keçmiş və indiki deputatlara böyük iradı və mesajı - o xəritələr gətirilməlidir, siz də ermənilərin dağıtdığı məscidlərlə bağlı fəal olsaydınız...**

■ səh. 3 ■

**Gənclərin yad təsirlərdən qorunması ilə bağlı Prezident Əliyevin daha bir çağırışı - rəsmi gənclər strukturları nə iş görüblər...**

■ səh. 3 ■

**Silah məsələsində Azərbaycanın dediklərini ermənilərin baş naziri də təsdiq etdi**

■ səh. 9 ■

**Azərbaycanın açdığı enerji şaxələndirmə imkanı Türkmənistan üçün həyat əhəmiyyətli faktora çevrildi**

■ səh. 10 ■

**Rusiyada "böyük" erməni lobbisti Marqarita Simonyanın əri ilə birgə korrupsiya imperiyası ifşa edilir**

■ səh. 5 ■

**Koronavirus-karantin tədbirlərindən boyun qaçıranların hüquqi məsuliyyət məsələsi...**

■ səh. 11 ■

**Rusiyada rublun ucuzlaşması Azərbaycana bəzi cəhətlərdən çətinlik yarada bilər**

■ səh. 13 ■



■ səh. 6 ■

## Əli Əsədov, Elman Rüstəmov və Mikayıl Cabbarov cəmiyyətimizə «B planı» ilə tam təminat verir - neft hətta 30-35 dollara düşsə də..., qonşularımızın pulu çökür, manat mövqelərini gücləndirir







**İlham Əliyevin Berdiməhəmmədovla imzaladığı bir sənəd Ermənistanın Türkmənistana uzatmağa cəhd etdiyi əli birdəfəlik kəsdi...**

■ səh. 8 ■

**Türkmənistan prezidentinin enerji şaxələndirilməsində «üçtərəfli paritet» ideyasının Azərbaycan üçün mümkün perspektivləri...**

■ səh. 8 ■

**İcra başçılarının bir çoxuna xas «kartla kasıb-kusubun payını yemək» əməlinin izləri sabiq nazir(lər)ə də gedib çıxdı...**

■ səh. 7 ■

■ səh. 2 ■

**Vilayət Eyvazov Daxili Qoşunların 28 ilini belə təsvir etdi - "...peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə..."**



■ səh. 7 ■

**Azərbaycan üçün yeni dilemma düzəldənlərin yanlışı - Türkiyə, ya Rusiya...**



■ səh. 12 ■

**Yas mərasimlərində kütləviliyin azaldılması - "Bakı-Xəbər" düz 9 il qabaq ayrıca yazı müsabiqəsi də keçirmişdi**



■ səh. 13 ■

**Xarici ölkələrdə Azərbaycanın ticarət evləri şəbəkəsinə maraq artır - Türkmənistan da qoşuldu**



■ səh. 15 ■

**Azərbaycan qadınlarına yerin altında və üstündə ağır işlərdə çalışmağı rəva görən Komitənin təklifinə ekspert rəyləri çox maraqlı oldu...**



### Bahar Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edildi

**Prezident İlham Əliyev B.Ə.Muradovanın Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Bahar Əvəz qızı Muradova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

### Azərbaycan BMT-də Sumqayıt hadisələri ilə bağlı sənəd yaydı

**Azərbaycan hökuməti 1988-ci il fevral ayında Sumqayıt şəhərində baş verən hadisələrlə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasına sənəd təqdim edib. "Trend"in məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin "Twitter" səhifəsində məlumat verilib.**



Sənəddə vurğulanıb ki, rəsmi araşdırma 1988-ci ilin fevral ayında cərəyan edən hadisələrin erməni ekstrimist təşkilatları tərəfindən Azərbaycanı nüfuzdan salmaq və Ermənistanın qeyri-qanuni işğalçı niyyətlərini ört-basdır etmək məqsədi ilə hazırlanıb həyata keçirildiyini təsdiqləyib.

Sənəd Azərbaycanın BMT-dəki daimi nümayəndəsi səfir Yaşar Əliyev tərəfindən BMT-nin Baş Assambleyasına təqdim edilib.

Qeyd edək ki, 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər ölüb. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub. Bu hadisələr də SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özləri ilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni - iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. Baxmayaraq ki, Sumqayıt hadisələrinin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədov güllələnib, amma şahid ifadələri əsl günahkarın əslində erməni əsilli Eduard Qriqoryan olduğunu sübut edir.

# Prezident İlham Əliyev Yaponiya, Ukrayna və Çexiyadakı səfirləri dəyişdi

**Prezident İlham Əliyev Gürsel İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilir.

Prezident İlham Əliyev Elmira Axundovanın Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Elmira Hüseyn qızı Axundova Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Prezident İlham Əliyev Adış Məmmədovun Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Prezident İlham Əliyev Azər Xuduyevin Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda, Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında da sərəncam imzalayıb.

Sərəncama əsasən, Azər Xudayar oğlu Xuduyev Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda, Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılır.

# Vilayət Eyvazov Daxili Qoşunların 28 ilini belə təsvir etdi - "...peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə..."

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 28 il ötür*

**Martın 12-də Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə - növbəti ildönümə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bugünü barədə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün - 1992-ci ilin 12 mart tarixi "Azərbaycan Respublikasının Daxili Qoşunları Günü" elan olunub.

Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən Qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü və hərbi qulluqçulardan 9 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü qeyd edib.

Tədbirdə iştirak edən Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev Daxili Qoşunların yaranmasının 28-ci ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, çıxışında təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini vurğulayıb.

Sonra çıxış edən Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov milli lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Nazir Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin müasir standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib.




V.Eyvazov qeyd edib ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, ölkəmizdə keçirilən I Avropa oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri"si yarışları kimi mötəbər beynəlxalq idman və digər mədəni-kütləvi tədbirlər zamanı, eləcə də təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında qoşunların şəxsi heyət üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin dünən imzaladığı müvafiq sərəncamları ilə daha 18 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

General-polkovnik Vilayət Eyvazov ölkə Prezidentini əmin edib ki, Daxili Qoşunların bütün şəxsi heyəti bundan sonra da respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək.

Sonra əlamətdar gün münasibətilə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə Daxili işlər nazirinin və nazir müavini - Daxili Qoşunların komandanının imzaladığı əmrlər elan olunduqdan sonra mükafatlar sahiblərinə təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

"XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır".



# Prezidentin Qarabağ məsələsində keçmiş və indiki deputatlara böyük iradı və mesajı - o xəritələr gətirilməlidir, siz də ermənilərin dağıtdığı məscidlərlə bağlı fəal olsaydınız...

## *Qasım Hacıyev: "Deputatlar beynəlxalq müstəvidə bu yöndə yetərli səviyyədə aktivlik göstərmir"*

Bu fikirləri Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib.

Ölkə başçısı deyib ki, beynəlxalq qurumlarda deputatlar fəal olmalıdır: "Beynəlxalq fəaliyyətlə bağlı demək istərdim ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına, elə bil ki, bəraət qazandırılır. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar".

Prezident onu da qeyd edib ki, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir: "Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm. Əgər bunu geniş siyasi elita görsə, onda əlbəttə ki, o ölkələrin rəhbərləri üçün Ermənistan rəhbərləri ilə ağız-ağıza öpüşmək ayıb olar. Biz bunu deməliyik, deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb. Amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Ona görə bu, xüsusi bir istiqamət olmalıdır".

Həqiqətən də Prezidentin bununla bağlı səsləndirdiyi iradlar reallığı əks etdirir. İndiyə qədər sadalanən məsələlərlə bağlı deputatlar gərəkən fəallığı nümayiş etdirsəydilər, o zaman erməni yalanlarının ifşa edilməsi ilə bağlı xeyli iş görülmüş olardı.

*"Bəzən bununla bağlı yazılanları çap etmirlər və yaxud da çap olunanları tərcümə etməyə kömək göstərilmir"*

Məsələyə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə, deputatlar Prezidentin bununla bağlı çağırışından ciddi nəticə çıxarmalıdır: "Çünki ermənilərin yaratdığı diaspor təşkilatları antitürk və anti-Azərbaycan siyasəti aparır. Onlar cürbəcür adlarla özləri barədə saxta tarix yazırlar. Azərbaycan tarixi ilə bağlı elə bir məsələ yoxdur ki, ermənilər orada saxtakarlığa əl atmasınlar. Həqiqətən də XX əsrin əvvəllərində dərc olunan Rusiya xəritələrində erməni toponimi yoxdur. Ermənilərin nə atributu var, nə də tarixi mənbəyi. Sonrakı dövrdə də bu proses davam etdirilməli idi. Ancaq SSRİ dönəmində buna imkan verilmədi. Ona görə də bunların sistemləşdirilib təbliğinə ehtiyac var. Uzun illərdir Qarabağ tarixi ilə bağlı aparılan araşdırmalara rəhbərlik edirəm. Ən azı 40-a qədər mövzu vermişik və bunlar yazılıb. Ancaq bunların dünyada təbliği yetərli səviyyədə deyil. Yazmaqla iş bitmir ki. Bəzən bununla bağlı yazılanları çap etmirlər. Bəzən çap olunur, amma xarici dildə çap etmək çətin olur. Tərcümə etməyə kömək göstərilmir. Ona görə də Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər çox önəmlidir. Təbliğat işi çox önəmlidir. Deputatlar beynəlxalq müstəvidə bu yöndə yetərli səviyyədə aktivlik göstərmir. Ona görə də bu xəritələr təbliğ edilməlidir. Dünya ictimaiyyəti bilməlidir ki, ermənilər hansı saxtakarlıqlara yol veriblər, hansı cinayətlər törədiblər. Hətta xristian həmrəyliyi məsələlərinin ortaya atılıb müsəlman dünyasına qarşı təxribatların çoxunda ermənilərin rolu var. Bütün bunlar ortaya çıxmalıdır. Bununla belə, deputatlar müsəlman ölkələrin parlament üzvləri ilə görüşlərdə məscidlərin məhv edilməsi ilə bağlı şəkilləri yaymalıdılar. Bütün işi prezident görə bilməz. Deputatlar bununla bağlı səylərini artırmalıdır. Belə olarsa, o zaman daha ciddi nəticələr əldə etmək olar".

***Vidadi ORDAHALLI***

"Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründə ki, istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur". Bu fikirləri Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib.



# Gənclərin yad təsirlərdən qorunması ilə bağlı Prezident Əliyevin daha bir çağırışı - rəsmi gənclər strukturları nə iş görüblər...

## *Arzuxan Əlizadə: "Hələ ki, bu yöndə nəzərəçarpan yeniliklər müşahidə edilmir"*

Dövlət başçısının sözlərinə görə, Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir və ölkədə demoqrafik mənzərə çox müsbətdir: "Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, - misal üçün, könüllülər hərəkatı çərçivəsində, - vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində, əlbəttə ki, qanunvericilikdə addımlar atılmalıdır. Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründə ki, istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur. Bu da bizə qarşı aparılan qeyri-təmiz siyasətin bir hissəsidir. Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir. Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər".

Prezident onu da qeyd edib ki, gənclərin mənəvi və fiziki hazırlığı üçün əlavə tədbirlər həyata keçirilməlidir: "Hesab edirəm ki, Milli Məclis və onun müvafiq komitələri bu işlə məşğul olub konkret təkliflər irəli sürəcəklər".

Onu da qeyd edək ki, Prezident İlham Əliyev ötən il Bakı Dövlət Universitetinin 100 illik yubileyində çıxışı zamanı da gənclərin yad təsirlərdən qorunması ilə bağlı çağırış edib. Bütövlükdə gənclər siyasəti ilə məşğul olan qurumların bu yöndə fəaliyyətini qənaətbəxş hesab etmək olarmı? Ötən müddət ərzində bu istiqamətdə hansı işlər görülüb?

*"Ölkədə gənclər siyasəti ilə məşğul olan qurumlar, təsisatlar bununla bağlı geniş konsepsiya hazırlamalıdır"*

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, hələ ki, bu yöndə nəzərəçarpan yeniliklər müşahidə edilmir: "Baxmayaraq ki, bununla bağlı gözləntilər var. Ümumilikdə, müasir dövrdə gəncləri yad təsirlərdən qorumaq çox çətin və mürəkkəb məsələdir. Çünki müasir texnologiyalar bütün gənclərin həyatına bu və ya digər dərəcədə təsir edir. Sözügedən məsələ qlobal miqyasda aktualdır. Hesab edirəm ki, bu sahədə nəticələrin əldə edilməsi zaman tələb edir. Ancaq ölkədə gənclər siyasəti ilə məşğul olan qurumlar, təsisatlar bununla bağlı geniş konsepsiya hazırlamalıdır. Sözügedən konsepsiya hazırlanarkən geniş müzakirələr aparılmalıdır. Cəmiyyətin müxtəlif zümrələri bu prosesdə iştirak etməlidir. İctimai təşkilatların bu prosesə cəlb olunmasına ehtiyac var. Yalnız bundan sonra geniş tədbirlər planı ilə çıxış etmək və bunu tətbiq etmək olar. Hesab edirəm ki, aparılan kompleks tədbirlər sayəsində gənclərin yad təsirlərə məruz qalmasının qarşısını almaq olar. Bu da ciddi iş və zaman tələb edən məsələdir. Fikrimcə, gənclərə bağlı fəaliyyət göstərən müvafiq strukturlar bu yöndə səylərini artırmalıdır".

***Vidadi ORDAHALLI***

# Operativ Qərargah Azərbaycanda virusdan zəruri müdafiə tədbirlərini sərtləşdirdi - İranla sərhədi bağlama müddəti uzadıldı, "ASAN Viza" verilişi dayandırıldı...

## DİN və Baş Prokurorluq da məlumat yaydı

**Azərbaycanın İranla sərhədinin bağlanması müddəti iki həftəlik uzadılıb. Bu barədə baki-xeber.com-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib. Qərara əsasən, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, Azərbaycan Respublikası ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə 29 fevral 2020-ci il tarixində qəbul edilmiş İran İslam Respublikası ilə sərhədin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlı saxlanmasına dair qərar növbəti iki həftə müddətinə uzadılıb.**

Qeyd edək ki, bundan əvvəl 29 fevral 2020-ci il tarixindən saat 16.00-dan etibarən iki həftəlik müvəqqəti dövr ərzində Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dövlət sərhədləri məhdudlaşdırıcı rejim əsasında bağlanıb.

Məlumat və faktların təhlili göstərir ki, Azərbaycan hökumətinin, xüsusən İranla sərhəd məhdudiyyətlərinə əl atması tam doğru qərarmış. Belə ki, İran İslam Respublikasında müalicə olunduqdan sonra qayıdan Azərbaycan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü qadının səhhətindəki xroniki problemlər davam etdiyindən xəstəxanaya müraciət edib. Müayinələr zamanı onda ağır autoimmun xəstəlik olan qırmızı qurdeşənəyi (Sistemik Lupus Eritematozus), 4-cü sinif lupus nefriti və xroniki böyrək çatışmazlığının son mərhələsi olduğu müəyyən edilib. Ağır gedişli autoimmun xəstəlik fonunda xəstədə ciddi ağciyər zədələnməsi və buna bağlı tənəffüs çatışmazlığı, həmçinin yüksək dozalı steroid və kimyəvi dərman müalicəsi fonunda ciddi immun yetməzlik aşkar olunub.

Bununla bağlı Nazirlər Kabinetinin yanında operativ qərargah məlumat yayıb.

Eyni zamanda, həmin şəxsin koronavirus infeksiyasına yoluxduğu müəyyən olunub. Xəstə xüsusi rejimli xəstəxanaya yerləşdirilib, onun vəziyyəti nəzarətə götürülüb və intensiv müalicə tədbirlərinin həyata keçirilməsi davam etdirilib. Bütün səylərə baxmayaraq, həmin şəxsin ağır autoimmun xəstəliyinə bağlı xroniki ağırlaşmaları dərinləşib, çoxsaylı orqan çatışmazlığı inkişaf etmiş, onun həyatını xilas etmək mümkün olmayıb.

Xəstənin ünsiyyətdə olduğu ailə üzvləri və digər şəxslər müəyyən edilib, onlar karantinə götürülüb.

Qeyd edilir ki, Ümumdünya Səhiyyə Təşkilatı koronavirus (COVID-19) xəstəliyinin dünyada yayılmasının pandemiya xarakteri aldığını elan edib. 12 mart tarixinə olan məlumata görə, dünyada 129.185 nəfər koronavirusa yoluxub və bu xəstəliyin əhatə dairəsi, yoluxma tendensiyası genişlənməkdədir. Virusa qarşı profilaktik tədbirlər çərçivəsində bir çox dövlətlər risk ölkələri ilə sərhədləri bağlayır, avia reysləri təxirə salır.



Qərargah tərəfindən əvvəllər də bəyan edildiyi kimi, ürək-damar, eləcə də xroniki xəstəlikləri olanlar, yuxarı yaş kateqoriyasına aid şəxslər virusa qarşı profilaktik tədbirləri daha da gücləndirməlidir.

Bir daha vətəndaşlar Ümumdünya Səhiyyə Təşkilatı və operativ qərargahın virusa qarşı profilaktik tədbirlər çərçivəsindəki tövsiyələrinə ciddi riayət etməyə, insanların kütləvi toplaşdığı yerlərdən uzaq durmağa, tibbi-profilaktik və dezinfeksiya qaydalarına əməl etməyə çağırılıb.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, Azərbaycan Respublikası ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə "ASAN Viza" elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırılır.

Nazirlər Kabinetinin yanında operativ qərargahdan baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan Respublikasına səfər etmək istəyən xarici ölkə vətəndaşlarının viza rəsmiləşdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq səfirlik və baş konsulluqlarına müraciət etmələri xahiş olunur.

Azərbaycan Respublikasının səfirlik və baş konsulluqlarının konsulluq xidməti xüsusi rejimdə fəaliyyət göstərəcək.

Ümumdünya Səhiyyə Təşkilatının təqdim etdiyi siyahıya əsasən xüsusilə COVİD-19 virusunun geniş yayıldığı ölkələrin vətəndaşlarından viza rəsmiləşdirilməsinə müraciət edərkən COVİD-19 testindən keçmələri barədə tibbi arayış da tələb olunacaq. Bu şərtlər son 14 gün ərzində həmin ölkələrdə olmuş digər əcnəbi vətəndaşlara da şamil olunacaq.

Azərbaycana səfər edən əcnəbi ölkə vətəndaşları fərdi tibbi göstəricilər nəzərə alınmaqla 14 gün müddətinə karantin rejiminə yerləşdirilə və ya ev şəraitində 14 günlük fərdi karantin rejiminə riayət etmələri tələb oluna bilər. Həmçinin, əcnəbi ölkə vətəndaşları COVİD-19 testindən keçirilə bilər.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, İtaliya, İspaniya, Fransa, Almaniyadan qayıdan Azərbaycan Respublikası vətəndaşları 14 və ya tələb olunduğu halda, 21 günlük karantin rejiminə yerləşdiriləcəklər.

Bütün vətəndaşlardan COVİD-19 virusu ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan karantin rejiminə riayət etmələri tələb olunur.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, Avropa İttifaqı ölkələri, xüsusilə İtaliya, İspaniya, Fransa, Almaniya və digər ölkələrdə olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizin aidiyyəti səfirlik və konsulluqlarında konsulluq qeydiyyatına düşmələri və olduqları ölkələri COVİD-19 virusu ilə əlaqədar müəyyən etdikləri karantin qaydalarına riayət etmələri xahiş olunur.

Azərbaycan Respublikası vətəndaşlarının yaxın iki ay müddətinə xüsusi zərurət olmadığı təqdirdə, xarici ölkələrə səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur.

Mütəxəssislərlə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə vətəndaşlarımıza müvəqqəti olaraq adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmaq tövsiyə edilmişdir.

Koronavirus (COVİD - 19) infeksiyasının tənəffüs damcıları ilə birbaşa təmas yolu ilə ötürüldüyü və yuxarı tənəffüs yollarının infeksiyası kimi təzahür etdiyi nəzərə alınaraq, ölkə ərazisindəki bütün ictimai iaşə obyektlərində çoxdəfəli istifadə üçün nəzərdə tutulmuş qəlyan avadanlıqlarından istifadə qadağan edilir.

Bu arada, Baş Prokurorluq və Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə əsassız xəbərlər yayanlarla bağlı birgə məlumat yayıb. Məlumatda bildirilib ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən koronavirus xəstəliyinin qarşısının alınması üzrə həyata keçirilən qabaqlayıcı tədbirlər, virusa yoluxmuş və karantinə yerləşdirilmiş şəxslərin sayı, onların müalicəsi və s. barədə ictimaiyyət mütəmadi məlumatlandırılır: "Lakin ayrı-ayrı şəxslər tərəfindən sosial şəbəkələrdə və "whatsapp" ani mesajlaşma tətbiqi vasitəsilə koronavirus xəstəliyi ilə mübarizədə insanlarda təşviş və çaşqınlıq yarada biləcək tədbirlərin görülməsi haqda müxtəlif şayiələr yayılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi vətəndaşları belə yalan məlumatlara inanmamağa, yalnız səlahiyyətli dövlət orqanlarının məlumatlarını nəzərə almağa çağırır.

**Eyni zamanda, həqiqəti əks etdirməyən, cəmiyyətdə süni ajiotaj yaratmağa hesablanmış bu cür əsassız və uydurma informasiyaları yayan şəxsləri xəbərdar edirik ki, yol verdikləri qanunazidd əməllərə görə barələrində hüquqi məsuliyyət tədbirləri görüləcək".**

***Namiq QULİYEV***

# Prezident Əliyev dünyaya min kilometrlərlə uzunluğu olan "yeni nəqliyyat dəhlizinin" mesajını verdi...

**Azərbaycanda səfərdə olan Türkmənistan prezidenti ilə görüşün ümumi nəticələrini dəyərləndirərkən Prezident İlham Əliyev maraqlı bir meqa layihənin gerçəkləşdiriləcəyinin anonsunu verib: "Şadam ki, iqtisadi-ticari sahədə işlər yaxşı gedir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika müşahidə olunur.**



Bu gün biz nəqliyyat-logistika sahəsi haqqında ətraflı söhbət etdik, müvafiq dövlət strukturlarına bu istiqamətdə işin intensivləşdirilməsinə, ölkələrimizin tranzit-nəqliyyat potensialının möhkəmləndirilməsinə dair səylərin əlaqələndirilməsi barədə tapşırıqlar verdik. Həm Türkmənistanda, həm də Azərbaycanda nəqliyyat infrastrukturuna çox böyük diqqət yetirildiyini nəzərə alaraq, biz bu infrastrukturun modernləşdirilməsi yolunda praktiki olaraq paralel addımlayırıq. Bu gün bizim əsas limanlarımız əlaqələndirilmiş, uzlaşdırılmış şəkildə işləyir və ərazilərimizdən keçən yükləri artırmağa imkan verir. Biz digər ölkələrə də öz tranzit potensialımızı təqdim edirik. Hesab edirəm ki, bu gün biz həmin potensialın möhkəmləndirilməsi barədə mühüm qərar qəbul etmişik. İnfrastruktur imkanlarının təmin edilməsi və yük axınının artırılmasına şərait yaradılması üçün əlavə tədbirlər görüləcək. Təbii ki, qonşularımızla sıx qarşılıqlı əlaqədə və xoş münasibətlərdə olduğumuza görə həmin dövlətlərdən daha çox yükgöndərənləri cəlb edəcəyik və mahiyyət etibarilə uzunluğu min kilometrlərlə ölçülən yeni nəqliyyat dəhlizi yaradacağıq. Beləliklə, ölkələrimizin daha da inkişaf etməsi üçün əlverişli şərait yaradacaq, regional əməkdaşlığı möhkəmləndirəcəyik".

Göründüyü kimi, İlham Əliyev xüsusi olaraq vurğulayır ki, söhbət uzunluğu min kilometrlərlə ölçülən yeni nəqliyyat dəhlizini yaratmaq planından gedir. Bu açıqlamadan görünür ki, məsələ artıq konkretləşib və söhbət böyük bir meqalayihənin həyata keçiriləcəyindən gedir.

Qeyd edək ki, bu ayın əvvəlində Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında da İlham Əliyev belə bir layihəyə işarə etmişdi:

"Hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil".

***İlham Şaban:** "Ehtimal etmək olmaz ki, burda söhbət sırf türkmən qazının ixracından gedir"*

***Elşən Əliyev:** "Mövcud vəziyyətdə türkmən qazının Avropaya nəqlinin ən rahat və ən ucuz yolu Azərbaycan üzərindəndir"*

Bütün bunlar onu deməyə əsas verirmi ki, Azərbaycan Türkmənistanla yeni bir layihəni reallaşdırmağın bir addımlığındadır?

Neft məsələri üzrə ekspert İlham Şaban "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hansısa layihənin razılaşdırılması ola bilər: "Ancaq tam ehtimal etmək olmaz ki, burda söhbət sırf türkmən qazının ixracından gedir. Çünki hələlik həmin məhsulun alıcısı tam müəyyənləşməyib. Həm də infrastrukturun reallaşmasına maraqlı olan bir şirkət istəyini bəyan etməyib. Görürsünüz ki, orda söhbət uzunluğu min kilometrlərlə olan dəhlizdən gedir. Sırf qaz nəqli nəzərdə tutulsaydı deyərdilər ki, boru xətti. Mənə elə gəlir ki, burda söhbət dəmiryol dəhlizindən gedir".

İqtisadçı Elşən Əliyev isə "Bakı-Xəbər"ə bildirdi ki, Türkmənistan yaranmış vəziyyətlə bağlı öz resurslarını xarici bazara çıxarmaq üçün əlavə yollar axtarır:

"Türkmənistanın da satmaq istədiyi qazdı. Mənə elə gəlir ki, söhbət elə həmin resursun xarici bazara Azərbaycan vasitəsilə çıxarılmasından gedir.Türkmənistan öz qazını İran və Rusiya üzərindən ixrac edir. Hazırda İran ciddi embarqo altındadır. Rusiya üzərindən qaz ixracı isə nisbətən uzun və bahadır. Bu səbəbdən Türkmənistan öz qazını Azərbaycan üzərindən Avropaya ixrac etmək istəyir. Mövcud vəziyyətdə türkmən qazının Avropaya nəqlinin ən rahat və ən ucuz yolu Azərbaycan üzərindəndir. Yeni layihə ilə bağlı verilən anons məhz bu məsələni əhatə edə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiyada "böyük" erməni lobbisti Marqarita Simonyanın əri ilə birgə korrupsiya imperiyası ifşa edilir

***Məhəmməd Əsədullazadə:** "Məlum araşdırma erməni lobbisinə güclü zərbədir"*

**Rus müxalifətçisi, hüquqşünas və blogger Aleksey Navalnıy erməni soyadlı məşhur cütlüyə - Marqarita Simonyan və Tigran Keosayana həsr etdiyi korrupsiya risqləri ilə bağlı araşdırma yayıb. Navalnıy təhqiqatını "Parazitlər" adlandıraraq, Rus təbliğatının ön sıralarında duran cütlüyün şübhəli sxemlərdən və fəndlərdən istifadə edərək Rusiya dövlətindən və ictimai mənbələrdən necə qazandıqlarını göstərib.**



Rusiyadakı dəhşətli korrupsiya miqyasından danışan Navalnıy həm də Rusiyada bir çox insanın, o cümlədən erməni teleaparıcıların Putinə olan böyük sevgidən deyil, çoxlu pulun mənimsənilməsindən qaynaqlandığını, pulların ölçüsünün peşə vicdansızlığı və əxlaqsızlıqla birbaşa mütənasib olduğunu faktlarla deyir. Navalnıy araşdırmasında Marqarita Simonyanın və əri Tiqran Keosayanın dövlət reklamçıları ilə telekanal arasındakı vasitəçi xidmətlərindən, həmçinin NTV üçün proqram hazırlanmasından qazandığı yüz milyonlarla rubldan bəhs edib. Məlum olub ki, Simonyan və əri 3 reklam agentliyi, bir studiya və iki şirkət vasitəsilə 3 ildə 720 milyon rubl qazanıb. Araşdırma Navalnının rəhbəri olduğu fondun əldə etdiyi çox sayda maliyyə və mühasibat məlumatları əsasında hazırlanıb. Navalnının sözlərinə görə, bu məlumatları açıq mənbədə yoxlayıb və həqiqiliyinə əmin olandan sonra dərc edib.

Bu arada erməni mediası bu təhqiqatdan narahat olub və yazır ki, sözügedən təhqiqat Ermənistan üçün müəyyən risqlər daşıyır. Erməni soyadlı cütlüyün bir çox qohumları ilə birlikdə dövlətin cibindən böyük pulları özlərinə necə köçürmələrini antierməni təbliğatda istifadə olunacağına işarə edir və bunu Rusiyadakı müəyyən dairələrin sırf milli baxımdan qəbul edə biləcəyindən narahatdılar.

Onu da qeyd edək ki, Marqarita Simonyan Kremlin təbliğat kanalı "Russia Today"in (RT) və "Sputnik" informasiya agentliyinin baş redaktorudur. Fürsət yaranan kimi Azərbaycan əleyhinə yazılar verir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd

*"Rusiya müxalifət liderinin Simonyan ailəsinin korrupsiya əməllərini ifşa etməsi məhz ermənilərin bu sahədə necə cinayət əməllərinə yol verməsinin sübutudur"*

Əsədullazadənin sözlərinə görə, məlum araşdırma erməni lobbisinə güclü zərbədir: "Rusiyanın KİV məkanında ermənilərin mövqeyinin müəyyən dərəcədə mühüm rol alması orada onların rüşvət pramidasından istifadəsinin nəticəsidir. Məhz bu istiqamətdə ermənilər Rusiyanın bir sıra rəsmiləri ilə işbirliyi qurub və bu kimi məsələlərdə rollarını artırıblar. Hesab edirəm ki, Marqarita Simonyan və onun ərinin bu gün Rusiyanın informasiya məkanında mövqeyi, bundan istifadə edərək topladığı sərvət elə birbaşa Moskvanın əleyhinə işləyəcək. Rusiya müxalifət liderinin Simonyan ailəsinin korrupsiya əməllərini ifşa etməsi məhz ermənilərin bu sahədə necə cinayət əməllərinə yol verməsinin sübutudur. Simonyan bu sərvət hesabına Rusiyanın xarici siyasətinin zədələnməsi istiqamətində də işlər aparır. Məhz Simonyanın NTV-də Türkiyə və Azərbaycan əleyhinə verilişləri Moskvanın siyasətinə ziddir. Ancaq rüşvət və korrupsiya girdabına düşmüş müəyyən qruplar buna göz yumur.

**Simonyan ailəsinin əsas missiyası həm də Rusiyada Türkiyə və Azərbaycan haqqında mənfi bir rəy formalaşdırmaqdır. Hesab edirəm ki, Rusiya elitası və siyasi dairələri bu antitəbliğat maşınını durdurmalı, Simonyan ailəsinin korrupsiya əməlləri ilə bağlı araşdırma aparmalıdır. Onların fəaliyyəti əsasən öz sərvətlərini inkişaf etdirmək və Türkiyəyə, Azərbaycana qarşı antisiyasi fikir formalaşdırmaqdır".**

***Vidadi ORDAHALLI***

# Əli Əsədov, Elman Rüstəmov və Mikayıl Cabbarov cəmiyyətimizə "B planı" ilə tam təminat verir - neft hətta 30-35 dollara düşsə də..., qonşularımızın pulu çökür, manat mövqelərini gücləndirir

**Dünya enerji bazarlarında baş verənlər, xüsusən də neftlə bağlı yaşananlar maliyyə sektoruna da təsirsiz ötüşmür. Artıq bir çox ölkələrdə, məsələn Rusiyada, İranda milli valyutalar dəyər itirir. Bu ölkələrdə, xüsusən dollara tələbin artması müşahidə olunur.**

Azərbaycanda da son günlərdə dollara tələbin artması halı qeydə alınır. Amma baş verənlər göstərir ki, manat, digər valyutalardan fərqli olaraq, dollar qarşısında sabitlyini qoruyacaq.

Əslində, verilən rəsmi açıqlamalar da manat üçün hansısa təhdidin olmadığını göstərir. Xatırladaq ki, məsələ ilə bağlı Mərkəzi Bankın sədri Elman Rüstəmov müvafiq açıqlama verib: "Ölkənin kifayət qədər valyuta ehtiyatı var. Dövlət Neft Fondunun transfertləri dəyişmir. Mərkəzi Bankın öz ehtiyatları, Maliyyə Nazirliyinin əhəmiyyətli ehtiyatları mövcuddur. Biz bütün ehtiyatlardan tam istifadə edəcəyik. Güman edirəm ki, problem biz gözlədiyimizdən daha tez başa çatacaq. Lakin bizim strateji valyuta ehtiyatlarımızın olduğunu da unutmaq lazım deyil". Mərkəzi Bankın sədri bildirib ki, hazırda bütün banklarda əhalinin ala biləcəyi qədər xarici valyuta var: "Milli valyutanı dollara çevirən əhalini sakitliyə çağırıram. Hökumətin, Mərkəzi Bankın həyata keçirdiyi tədbirlərdən görünür ki, biz buna tam şəkildə hazırıq. Hökumətin və Mərkəzi Bankın "B" planı var. Bu plan məhz neftin 30-35 dollar qiymətinə hazırlanıb. Faktiki olaraq hökumət bu planla fəaliyyət göstərir. Biz bu problemi tez bir zamanda həll etmək əzmindəyik. Əhaliyə çağırışımız ondan ibarətdir ki, onlar öz hərəkətləri ilə bizə kömək edə bilərlər ki, bu problemi tez həll edək". Baş nazir Əli Əsədov da problem üçün heç bir əsas olmadığını bildirir: "Bu gün ölkəmizin iqtisadiyyatı görülmüş tədbirlər nəticəsində 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Qeyd etmək istəyirəm ki, dünyada baş verən mənfi iqtisadi meyllərə baxmayaraq, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. Azərbaycanın müsbət beynəlxalq investisiya mövqeyi onun beynəlxalq kreditor rolunda çıxış etdiyini göstərir. Biz vəziyyətə gündəlik əsasda nəzarət edirik və iqtisadiyyatımızda mövcud situasiya idarəolunandır. Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkə iqtisadiyyatına mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə ediləcək. Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkənin kifayət həcmdə maliyyə resursları vardır. Strateji valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini ötür və xarici dövlət borcunu 6 dəfə üstələyir.




Bu baxımdan, yaranmış vəziyyətdə biznes ictimaiyyətini və əhalini təmkinli davranış nümayiş etdirməyə çağırıram. Eyni zamanda, bildirmək istəyirəm ki, valyuta bazarına nəzarət gücləndiriləcək, qeyri-qanuni hərəkətlər və yaranmış vəziyyətdən sui-istifadə hallarının qarşısı qətiyyətlə alınacaqdır". İqtisadiyyat naziri Mikayıl Cabbarov da təşviş üçün əsas görmür. Ölkə iqtisadiyyatının maliyyə dayanıqlılığına toxunan Mikayıl Cabbarov bildirir: "İqtisadiyyatımızın istənilən xarici şoklara qarşı güclü maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. Strateji valyuta ehtiyatları dövriyyədə olan bütün manat kütləsinin həcmindən 5 dəfə, nağd manat kütləsinin həcmindən isə 9 dəfə çoxdur. Bu da valyuta bazarının tarazlığının təmin olunması və makroiqtisadi sabitliyin qorunmasının fundamental şərtidir".

Ekspertlər bildirir ki, manatın sabitliyinin qorunması olduqca mühümdür. Bu, valyuta bazarında tələb-təklifin tənzimlənməsi, inflyasiyanın nəzarətdə saxlanılması və bazarlarda spekulyasiyalara yol verilməməsi baxımından da mühüm önəm kəsb edir. İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev də bildirir ki, vəziyyət nəzarət altındadır: "2015-ci ildə yaşanan iki devalvasiya insanlarda neftin qiymətinin düşməsi ilə bu streotipin yenidən meydana çıxmasına şərait yaradır. Bu gün Azərbaycan iqtisadiyyatının vəziyyəti əvvəlki dövrlərdən fərqlənir və daha dayanıqlıdır. Hökumətin yaranan şoklara qarşı reaksiyası əvvəlkilərlə müqayisədə daha yüksəkdir. Hökumət ölkədə proqnozlaşdırılan məzənnənin olmasında maraqlıdır. Dövlət büdcəsi hazırlanan zaman və büdcəyə əlavə olan sənədlərdə də növbəti iki-üç il ərzində milli valyutanın hazırki səviyyədə saxlanması prioritet kimi təsbit olunub". Bütün bunlar o deməkdir ki, manatı hansısa təhdid gözləmir.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, ABŞ özü də dolları yenidən ucuzlaşdırmağa hazırlaşır. Belə ki, ABŞ prezidenti Donald Tramp Federal Ehtiyatlar Sistemini faiz dərəcəsini rəqib ölkələrin səviyyəsinədək endirməyə çağırıb: "Astagəl Federal Ehtiyatlar Sistemi faiz dərəcəsini rəqibimiz olan ölkələrin səviyyəsinə endirməlidir". Xatırladaq ki, 2008-ci il böhranından sonra ilk dəfədir martın 3-də fövqəladə iclas keçirən Federal Ehtiyatlar Sistemi yeni koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində faiz dərəcəsini 1,5 - 1,75 faizdən 1 - 1,25 faizədək endirib. İndi faizlər ensə, dollar daha da ucuzlaşacaq.

**Digər tərəfdən, cari ildə ölkənin valyuta gəlirləri də xərclənəndən daha çox olacaq. Qeyri-neft sektoru, turizm, nəqliyyat daşımaları, aqrar ixrac və sair valyuta gəlirlərini xeyli artırır. Təbii ki, belə vəziyyətdə ölkəyə daxil olan dolların həcmi ölkədən çıxan həcmdən çoxdur. Məhz bu vəziyyət dolları manat qarşısında zəiflədir. Eləcə də dünya maliyyə bazarlarında baş verənlər, xüsusən də dolların uçot dərəcəsinin azalması kimi yeni addımlar atılsa, manat daha da güclü olacaq.**

***Ramil QULİYEV***

# İcra başçılarının bir çoxuna xas "kartla kasıb-kusubun payını yemək" əməlinin izləri sabiq nazir(lər)ə də gedib çıxdı...

**Ölkənin bəzi rayonlarında həyata keçirilən icra başçıları ilə bağlı həbslərdə ortaya konkret cinayətlər çıxdı. Əməliyyat çəkilişləri ilə də sübut edildi ki, icra başçılarının əsas maliyyə maxinasiyalarından biri də işsizlərə ayrılan müavinətlərlə bağlı olub.**

Aydınlaşdı ki, icra başçıları həmin kateqoriya adamların adını formal siyahıya qeyd edib, kartlarda olan vəsaiti özlərinin qohumları vasitəsilə nağdlaşdırıb mənimsəyirmişlər. Bu vəziyyətlə bağlı hətta ölkə başçısı da kəskin mövqeyini bir neçə dəfə bildirib. Bakıda baş tutan bir məhkəmədə açıqlanan faktlardan görünür ki, bəzi sabiq nazirlər də "kart maxinasiyaları" ilə məşğul olublar. Belə ki, keçmiş ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun daha bir korrupsiya əməli ortaya çıxıb. Nazirliyin keçmiş işçilərinin məhkəmədə verdikləri ifadələrə əsasən, H.Bağırov nazirlikdə müxtəlif adamların adlarına çoxsaylı maaş kartlarının açılmasına, nəticədə pulların kartlardan çıxarılıb mənimsənilməsinə şərait yaradıb. Və özü də hər ay bu işdən 10 min manat haqq alıb. Üstəlik, iki il əvvəl "kart korrupsiyası" sxemi ilə məşğul olan işçilərindən birdəfəyə 265 min manat alaraq qaytarmayıb. Nazir dəyişəndə bu sxemin üstü açılıb və iştirakçılar məsuliyyətə cəlb olunub. Lakin Hüseynqulu Bağırova hələlik bu işlə bağlı hansısa irad bildirən yoxdur.

Hüseynqulu Bağırovun da qarışdığı mənimsəmə sxemi barədə Bakı Ağır Cinayətlər Məhkəməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin keçmiş vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəmə iclasında danışıblar.

Mənimsəmədə təqsirləndirilən şəxslər nazirliyin Hidrometeorologiya Departamentinin direktoru olmuş Əkbər Həsənov, həmin departamentin baş mühasibi İlqar Hacıyev və departamentin digər əməkdaşları - Orxan Qasımov, Tural Hacızadə və Təbriz Əliyevdir. Onlardan yalnız İlqar Hacıyev həbsdədir. Digər sabiq nazirlərlə bağlı da bu yöndə araşdırmalar aparılmalıdırmı?



Ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ictimailəşən faktlar çox acınacaqlı mənzərəni canlandırır: "Biz diqqət yetirməliyik ki, bu cür ciddi faktlara artıq hüquqi qiymət verilib. İş məhkəmədədirsə, bunun sonunu da gözləməliyik. Təəssüflər olsun ki, bəzən bu cür hallarla bağlı təqsirləndirilən şəxslər çox yüngül cəza ilə yaxalarını məsuliyyətdən qurtara bilirlər. Burada söhbət ağır cinayətdən gedir. Hesab edirəm ki, məsələyə obyektiv hüquqi qiymət verilməlidir. Yalnız icraçılar deyil, işin başında duranlar da həbs edilməlidir. Nazir, komitə rəhbəri olmasından asılı olmayaraq, hamı öz əməlinə cavab verməlidir. Proses yalnız bir nazirliklə məhdudlaşdırılmamalıdır. Kifayət qədər korrupsiyada adı hallanmış sabiq nazirlər var ki, sərbəst gəzirlər, yığdıqları pullarla özlərinə biznes qurublar, adları ciddi korrupsiya əməllərində hallanıb. Onlarla bağlı aparılmamış cinayət işləri var. Bu şəxslərlə əlaqəli də konkret nəticələrə hesablanan araşdırmalar həyata keçirilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan üçün yeni dilemma düzəldənlərin yanlışı - Türkiyə, ya Rusiya...

**Rusiya və Türkiyə arasında Suriya ilə bağlı Moskvada əldə olunan razılıq bu iki ölkənin Yaxın Şərq əməkdaşlığının davam edəcəyini göstərirsə də, məsələyə fərqli yanaşanlar da az deyil. Xatırladaq ki, Moskvada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında görüşdən sonra tərəflər atəşkəs və əməkdaşlığın davam etdirilməsinə dair razılıq əldə edib.**

Görünən budur ki, Qərb ölkələri bu razılıqdan o qədər də məmnun deyil. Ümumiyyətlə, Ankara ilə Moskva arasında yaxınlaşmanın geosiyasi nəticələrinin olması qaçılmaz sayılır. Bu prosesin bütövlükdə qlobal siyasətə, o cümlədən Cənubi Qafqazda da təsir edəcəyi istisna edilmir. İndiki durumda İrəvan Rusiya - Türkiyə münasibətlərinin normallaşmasını özünə təhlükə kimi qiymətləndirsə də, real heç bir addım ata bilmir. Azərbaycanın isə bu məsələdə mövqeyi bəllidir.

Xarici İşlər nazirinin müavini Xələf Xələfov bildirib ki, Azərbaycan bu məsələnin tezliklə diplomatik yolla tənzimlənməsinin tərəfdarıdır: "Bu baxımdan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Moskvaya səfərini və bu səfər çərçivəsində əldə olunmuş razılaşmaları yüksək qiymətləndiririk. Suriyada yaranmış vəziyyət diplomatik yolla həllini tapmalıdır. Bu təkcə gərginləşmə ilə bağlı deyil, eyni zamanda humanitar böhranın yaranmasına yol açan problemdir. Ölkələr bu sahədə əldə olunmuş razılaşmalara riayət etməlidir. Suriyada vəziyyətin gərginləşdirilməsinə, qarşıdurmanın artmasına, müharibənin qızışdırılmasına yol verilməməlidir".

Azərbaycandakı bəzi radikal müxalif dairələrə bağlı olan şəxslər belə məlumatlar dövriyyəyə buraxırlar ki, Türkiyə ilə Rusiya arsında əldə olunan razılaşma hər an pozula bilər və bunun üçün də Azərbaycan hansı ölkəni dəstəkləyəcəyi ilə bağlı dilemma qarşısında qalıb. Bu fikirləri nə dərəcədə əsaslı saymaq olar?

Siyasi Texnologiyalar və İnnovasiya Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyə ilə Rusiya arasındakı münasibətlərin gərginləşə biləcəyini ehtimal etmək olar: "Bu, hətta çox böyük müharibəyə çevrilə bilər. Təbii, tərəflərin hər ikisi istəyir ki, Azərbaycanı öz tərəfində görə bilsin. Ancaq Azərbaycan bu məsələdə maksimum neytralığını qorumağa çalışır. İlham Əliyev MDB məkanında yeganə prezidentdir ki, müxtəlif istiqamətlərdən gələn təzyiqləri ölkənin üzərindən çox uğurla keçirə bilir. Rusiya MDB məkanındakı bütün ölkələrə təzyiqlər edir. Hətta deyərdim ki, Kremldə MDB-nin hər bir dövlətilə bağlı təzyiq strategiyası mövcuddur. Belarus, Ukrayna və başqa ölkələrlə bağlı Rusiyanın yürütdüyü siyasət göz qabağındadır.

***Mübariz Əhmədoğlu:*** *"Türkiyə ilə Rusiya arasında münasibətlər nə qədər gərginləşsə də, biz hadisələrin episentrində olmamalıyıq"*



Azərbaycana da həmin ölkənin həmlələrini bilirik. Buna baxmayaraq, biz soyuqqanlı davranmalıyıq. Türkiyə ilə Rusiya arasında münasibətlər nə qədər gərginləşsə də, biz hadisələrin episentrində olmamalıyıq.

Əlbətdə, bu iki ölkə arasındakı münasibətlərin yaxınlığından biz fayda götürə bilirik. Ancaq o demək deyil ki, baş verəcək gərginlikdən itki ilə çıxarıq. Vəziyyət aydınlaşandan sonra Azərbaycan iki dövlətin daha da yaxınlaşması istiqamətində səylərini göstərəcək. Biz bu cür mühüm vasitəçilik missiyasını 5 il əvvəl gördük. Təyyarə olayına görə iki ölkə arasında gərginləşən münasibətin tənzimlənməsində Azərbaycanın rolunun olması etiraf edildi".

***Məhəmmədəli QƏRİBLİ***

# İlham Əliyevin Berdıməhəmmədovla imzaladığı bir sənəd Ermənistanın Türkmənistana uzatmağa cəhd etdiyi əli birdəfəlik kəsdi...

## Elşən Mustafayev: "Bu, Ermənistana vurulan ciddi zərbədir"

**Məlum olduğu kimi, Türkmənistan prezidenti Azərbaycanda rəsmi səfərdə olub və bir sıra vacib sənədlər imzalayıb. Əldə olunan razılaşmalardan sonra Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.**

Prezident İlham Əliyev bildirib ki, imzalanmış sənədlər arasında dövlət başçılarının Birgə Bəyanatını xüsusi qeyd etmək lazımdır: "Bu sənəddə bizim niyyətlərimiz, dünyada, regionda vəziyyətə verdiyimiz qiymət və gələcəyə istiqamətlənməyimiz öz əksini tapıb. Mən, həmçinin hesab edirəm ki, Birgə Bəyanatın mühüm bəndlərindən biri ölkələrimizin ərazi bütövlüyünün, sərhədlərinin və suverenliyinin toxunulmazlığının bir daha dəstəklənməsi, eləcə də münaqişələrin beynəlxalq hüququn prinsipləri və ərazi bütövlüyü, sərhədlərin və suverenliyin toxunulmazlığı prinsipləri əsasında həllidir.

Şadam ki, iqtisadi-ticari sahədə işlər yaxşı gedir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika müşahidə olunur. Bu gün biz nəqliyyat-logistika sahəsi haqqında ətraflı söhbət etdik, müvafiq dövlət strukturlarına bu istiqamətdə işin intensivləşdirilməsinə, ölkələrimizin tranzit-nəqliyyat potensialının möhkəmləndirilməsinə dair səylərin əlaqələndirilməsi barədə tapşırıqlar verdik. Həm Türkmənistanda, həm də Azərbaycanda nəqliyyat infrastrukturuna çox böyük diqqət yetirildiyini nəzərə alaraq, biz bu infrastrukturun modernləşdirilməsi yolunda praktiki olaraq paralel addımlayırıq".

Göründüyü kimi, ölkə başçısı əldə olunan razılaşmalar sırasında Türkmənistanın Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəklədiyinə dair sənədin olduğunu bildirib. Türkmənistanın bu mövqeyi yalnız Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək anlamını daşımır. Bu, eyni zamanda, Ermənistanın Xəzərin o biri tərəfinə uzanan əlinin kəsilməsi anlamına gəlir. Çünki Ermənistan Türkmənistanla bir çox sahələrdə əməkdaşlıq etməyə meylli idi. Xüsusilə də İran vasitəsilə bəzi ticari razılaşmaları həyata keçirmək istəyirdi. Türkmənistanın ərazi bütövlüyümüzü dəstəkləməsi, çox güman ki, Ermənistanın bu istəklərini ürəyində qoymuş olacaq. Çünki bu mövqe eyni zamanda Ermənistanın işğalçı ölkə olmasını təsdiq etmək anlamına gəlir. Bu istiqamətdə Ermənistanın aldığı zərbəni necə dəyərləndirmək olar?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki,



Ermənistanın yürütdüyü siyasət onu bütün layihələr və əməkdaşlıq formatlarından kənarda saxlayır: "Bu səbəbdən də, Ermənistan özünə yeni çıxış yolları axtarır. Xüsusilə də Azərbaycanın yaxın münasibətdə olduğu ölkələrlə daha sıx əməkdaşlığa meyl edir. Biz bunu İsrailin timsalında da gördük. Hətta Ermənistan İsraildə səfirliyini də açdı. Azərbaycanı Orta Asiya ölkələri ilə bir çox dəyərlər birləşdirir. Həmin ölkələrdən biri də Türkmənistandır. Bu ölkə ilə biz həm sərhədik, həm də orta mədəniyyətə, milli kimliyə sahibik. Son zamanlar Azərbaycanın bu türkdilli ölkə ilə əməkdaşlığı bütün sahələr üzrə ciddi inkişaf edir. Bu səbəbdən də Ermənistan Türkmənistanı da öz hədəfinə almışdı. Burada İranın da rolunu xüsusi qeyd etməliyik. İranın hər iki ölkə ilə sərhəddinin olması Ermənistanı bir qədər həvəsləndirmişdi. Hətta İran ərazisi vasitəsilə yanacaq alveri də etmək istəyirdilər. İranın tam sanksiyalar altına düşməsi bu planın reallaşmasını ümumiyyətlə mümkünsüz etdi. İndi də biz görürük ki, Türkmənistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Bu, Ermənistana vurulan ciddi zərbədir. Bununla faktiki olaraq Türkmənistan haqqın yanında olduğunu bəyan edir. Eyni zamanda Ermənistanı dolayısı ilə işğaldan əl çəkməyə çağıran ölkələrin sırasına olduğunu bildirmiş olur. Ermənistan anlamalıdır ki, onun yeganə çıxış yolu işğaldan əl çəkməkdir. Belə olmasa, Ermənisatnın etdiyi yersiz çabalar Türkmənistanla olan münasibətdəki kimi özünü yerindəcə boğacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Türkmənistan prezidentinin enerji şaxələndirilməsində "üçtərəfli paritet" ideyasının Azərbaycan üçün mümkün perspektivləri...

## Fikrət Yusifov: "Berdiməhəmmədov şaxələndirmənin paritet əsasda qurulmasını deyərkən bütün tərəflərin marağının eyni səviyyədə qorunmasını nəzərdə tutub"

**"Həm Türkmənistan, həm də Azərbaycan karbohidrogen ehtiyatları ilə zəngin, özünü təmin edən dövlətdir. Biz bu ehtiyatların şaxələndirilməsinin tərəfdarıyıq". Bunu Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatlarla çıxış edərkən bildirib.**



Q.Berdiməhəmmədovun fikrincə, şaxələndirmə bütün tərəflər arasında paritet əsasda qurulmalıdır: "Biz belə bir ideya irəli sürürük ki, bu şaxələndirmə istehsalçı, daşıyıcı və son istehlakçı arasında paritet əsasda qurulmalıdır. Buna görə də biz bu gün razılaşdıq ki, bundan sonra da qaz, neft-kimya və başqa sahələr üzrə birgə işləyəcəyik. Həmçinin tekstil sənayesi, aqrosənaye kompleksi, habelə nəqliyyat-tranzit dəhlizinin inkişafı məsələlərinə diqqəti cəlb etdik.

Bu mövzuya keçməzdən əvvəl xatırlatmaq istərdim ki, bizi həm də Xəzər dənizi birləşdirir. Xəzəryanı ölkələrin hamısı bildirir ki, bu, sülh və mehriban qonşuluq dənizidir. Buna görə də, bildiyiniz kimi, Xəzər dənizinin statusu barədə beynəlxalq Konvensiya qəbul edilib və orada müəyyən olunub ki, gələcəkdə bütün mexanizmlər bizim xarici siyasət idarələri tərəfindən işlənib hazırlanmalıdır".

Maraqlıdır, şaxələndirmənin bütün tərəflər arasında, yəni istehsalçı, daşıyıcı və son istehlakçı olmaqla, belə demək mümkünsə, "üçtərəfli paritet" əsaslarda qurulması Azərbaycan üçün sərfəlidirmi? Ekspertlər bunun perspektivinə necə yanaşır?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, burada Azərbaycanın xeyrinə olmayan məqamlardan söhbət gedə bilməz: "Fikrimcə, burada söhbət bərabərlikdən gedir. Yəni tərəflərin heç biri ayrıseçkiliyə məruz qalmasın. Q.Berdiməhəmmədov məlum fikirləri ilə ona işarə etdi ki, bu məsələdə bütün tərəflərə eyni şərait yaradılmalıdır. Düşünmürəm ki, onun bu cür yanaşması iqtisadi baxımdan bizim ziyanımıza olsun. Bilirsiniz, regionda bəzən böyük dövlətlər müəyyən məsələləri öz xeyirlərinə həll etməyə çalışırlar. Bu zaman kiçik dövlətlər müəyyən mənada çətinliklərlə üzləşir. Hesab edirəm ki, Q.Berdiməhəmmədov şaxələndirmənin paritet əsasda qurulmasını deyərkən bütün tərəflərin marağının eyni səviyyədə qorunmasını nəzərdə tutub. Zatən bunların hər birinin öz qiyməti var. Bu qiymətə uyğun olaraq iqtisadi əlaqələr tənzimlənir. Bu bütün dünyada belədir. Hesab edirəm ki, sözügedən istiqamətdə işlər sürətləndiriləcək. Nəticədə Azərbaycanın tranzit ölkə olaraq rolu və gəlirləri artacaq".

*"Düşünmürəm ki, onun bu cür yanaşması iqtisadi baxımdan bizim ziyanımıza olsun"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Silah məsələsində Azərbaycanın dediklərini ermənilərin baş naziri də təsdiq etdi

**Ordunun silahlanması baxımından Azərbaycanın Ermənistandan dəfələrlə üstün olması bu gün heç kimə sirr deyil. Digər tərəfdən reallıq həm də ondan ibarətdir ki, Azərbaycan və Ermənistanın aldığı silahlar keyfiyyət baxımından da əhəmiyyətli dərəcədə fərqlənir. Azərbaycan əsas etibarı ilə son hərbi texnologiyalara yiyələnirsə, Ermənistanda vəziyyət fərqlidir. Ölkənin aldığı silahlar daha çox istismardan çıxanlardır.**

Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqatı İnstitutunun (SİPRİ) axırıncı yaydığı hesabatında qeyd olunur ki, son beş ildə Ermənistan silah idxalını 415% artırıb. Məlumata görə, Ermənistanın idxal etdiyi silahların 94%-i Rusiyanın payına düşüb. Hesabatda Ermənistan və Azərbaycan arasında hərbi toqquşmaların artdığı, bunun da iki ölkənin silah alışını artırmasına gətirib çıxardığı vurğulanıb. SİPRİ, həmçinin, Azərbaycanın 2015-2019-cu illərdə aldığı silahın 2010-2014-cü illərdə idxal etdiklərindən 40% az olduğunu bildirib. Bununla belə Azərbaycan son beş ildə aldığı silah həcminə görə Ermənistanı 3 dəfə üstələyib. Hesabatda qeyd edilir ki, Rusiya son 5 ildə Ermənistan üçün əsas silah tədarükçüsüdür. Azərbaycanla bağlı tam ayrı situasiya yaranıb. Ölkəmiz ən müxtəlif dövlətlərdən silah alır. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, alınan silahlar keyfiyyət baxımından da fərqlənir. Belə ki, Ermənistanın əldə etdiyi silahlar yalnız istismar müddətini başa çatdıran və Rusiyanın silahlanmasından artıq çıxarılan silahlardır. Halbuki, Azərbaycan bu silahların Rusiyadan ən son variantlarını əldə edir. Bu deyilənlərin tam həqiqət olduğunu Ermənistanın baş naziri Nikol Paşinyan da təsdiq edib. Belə ki, Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün elan edilmiş referendumun təbliğat kampaniyası zamanı Gorusda vətəndaşlarla görüşən Paşinyan olduqca maraqlı faktlar açıqlayıb. "Azadlıq" radiosunun erməni xidməti bildirir ki, Paşinyan burada keçmiş hakimiyyətin ünvanına ciddi ittiham səsləndirib, eks-prezident Serj Sarkisyanın orduya 42 milyon dollarlıq yararsız silah-sursat aldığını açıqlayıb. Paşinyan bu faktı ilk dəfə bəyan edərək deyib ki, bu faktla bağlı cinayət işi qaldırılıb və onun sözlərinə görə, keçmiş hakimiyyətin dövründə tez-tez ordu üçün yararsız sursatlar alınıb: "Serj Sarkisyanın hakimiyyəti 42 milyon dollara silah alıb, həmin silah ümumiyyətlə işləmir, o, ümumiyyətlə heç nəyə yaramır, ancaq metallomdur. Bu adamlar 42 milyon dollar ödəyiblər. Bu silah heç nəyə yaramır, o heç silah da deyil, bəlli deyil nədir. İndi cinayət işi qaldırılıb, qoy Serj Sarkisyan gəlib buna cavab versin". Paşinyanın bu açıqlaması Ermənistanda böyük ajiotaj yaradıb. Ermənistan İslahatçılar partiyasının rəhbəri Vahan Babayan bu xüsusda bildirir: "Ordunun alt paltarı və yeməkxanasından o tərəfə ordu barəsində məlumatı olmayan keçmiş jurnalist bu gün yenidən Serj Sarkisyanın dövründə alınmış silahları xatırlayıb. Təsəvvür edirsiniz necə ciddi ittiham səsləndirir? Nikol bu dəfə artıq hara aparır? Görünür, "İsgəndər" də Çin oyuncağı olub, hə? Hətta kiçik məntiqə malik olan insan belə bu sayıqlamaları beyninə yerləşdirə bilməz". Paşinyanın bu çıxışından sonra Ermənistan mətbuatı onu sərt tənqid edib. "İrates" qəzeti bu xüsusda yazır: "Hökumət başçısının bu tip açıqlamaları Ermənistanın təhlükəsizlik məsələlərinə tam olaraq ziddir. Siyasi maraqları naminə Paşinyan, hətta hərbi təhlükəsizlik məsələlərini müzakirə etməyə hazırdır".

Digər tərəfdən media Paşinyanın dönəmində də elə işəyarayan silahlar alınmadığını bildirir. Real sübut kimi Hindistanın 40 milyon dollarlıq 4 radar stansiyasının Ermənistana tədarükü göstərilir. Məlumata görə, Hindistan artıq Ermənistana radar stansiyalarının tədarükünə başlayıb. Müqavilədə Ermənistana 4 ədəd "Swathi" tipli radarın tədarükü nəzərdə tutulur. Hindistan istehsalı olan radar sistemi sınaq məqsədilə 2018-ci ildən bəri Pakistandan gələn artilleriya atəşinin aşkarlanması üçün Pakistanla sərhəddə yerləşdirilib. Amma artıq onun o qədər də effektiv olmadığı üzə çıxıb. Rusiyalı hərbi ekspert, Moskva Siyasi və Hərbi Təhlil Mərkəzinin direktor müavini Aleksandr Xramçixin də məsələnin bu tərəfinə nəzər salaraq maraqlı məqamlara toxunub. O bildirir ki, Hindistan bir tərəfdən onun silahları xüsusi keyfiyyətə malik deyil: "Təkrar edə bilərəm ki, Hindistan silahları xüsusi keyfiyyətləri ilə seçilmir. Hindistan, demək olar ki, dünyanın hər şey istehsal edən azsaylı ölkələrindən biridir. Məsələn, 1970-ci illərdən bəri "Arçun" tipli tanklar istehsal edirlər və bu günə qədər də elə bir çox irəliləyiş əldə etməyib. "Tejas" qırıcıları da 1970-ci illərdən bəri istehsal olunur, amma yenə də bir o qədər yaxşı alınmır. Bu sıranı kifayət qədər uzada bilərəm. Yəni onların normal silahları yalnız xarici lisenziyaya əsasən istehsal etdikləri şeylərdir. Hindistanın silahlanmasının, hərbi texnikasının əksəriyyəti hələ də Sovet-Rus silahlarıdır. Baxmayaraq ki, bu yaxınlarda silah-sursat və hərbi-texniki münasibətlərini xeyli şaxələndiriblər. Lakin şaxələndirməsinə baxmayaraq, Hindistan Rusiya silahlarının əsas alıcısıdır. Bura radar sistemləri də daxildir. Bu mənada, Paşinyan Hindistandan silah alınması ilə öyünə bilməz. Çünki bu silahlar müasir tələblərə cavab vermir. Azərbaycan isə bu mənada daha öndədir. Ölkə təkcə Rusiyadan yox, İsraildən, İspaniyadan ən müasir radar və digər sisitemlər alır. Yəni bu sahədə Azərbaycan daha öndədir".

Digər tərəfdən o da faktdır ki, Rusiyadan və digər ölkələrdən Ermənistana verilən hərbi texnika çox vaxt ya istismardan çıxarılmış olur, ya da günün tələblərinə cavab vermir. Məsələn, məlumdur ki, erməni ordusunda da "Solntsepek" yaylım raket sistemləri var. O, 1987-ci ilə aid "Buratino" sisteminin 2001-ci ildə modifikasiya olunmuş variantıdır. Lakin Azərbaycana satılmış "Solntsepek"lər tamamilə yenidir və dağlıq şəraitdə yaxşı manevrləri aşma qabiliyyətinə malikdir. Belə ki, T-90 tankının bazasında hazırlanıb, Ermənistana satılanlar isə köhnə T-72 tanklarının bazasındadır. Digər silah sistemləri üzrə də eyni vəziyyət özünü göstərir. Bu mənada, "Alpari" informasiya-təhlil mərkəzinin rəhbəri Aleksandr Razuvayev İrəvanın diqqətli olmasının vacibliyini bildirir. Ekspertin sözlərinə görə, Ermənistandan fərqli olaraq, Azərbaycan silah alışına böyük həcmdə vəsait sərf edir və ödədiyi pula görə də müasir texnika tələb edir: "Bura Rusiyadan alınan silahlar da daxildir. Xatırladım ki, son 10 il ərzində Azərbaycan təqribən 5 milyard dollar məbləğində Rusiya silahı əldə edib. S-300 PMU-2 zenit raket sistemlərinin iki divizionunun, 100-ə qədər T-90S tankının və 118 ədəd BMP-3 piyada döyüş maşınının, 18 özüyeriyən "Msta-S" artilleriya qurğusunun, 18 ədəd "Smerç" yaylım atəşi reaktiv sistemlərinin işəsalma qurğularının və digər hərbi texnikanın alınması üçün müqavilələr imzalanıb. Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putinin ötən ilin oktyabrında Soçidə baş tutmuş görüşü zamanı hərbi-texniki əməkdaşlıq məsələləri də qaldırılıb. Azərbaycan Rusiyadan və digər ölkələrdən müasir silah alışını davam etdirəcək. Ermənistan isə bu imkanlardan məhrumdur". Ümumuiyytlə, faktdır ki, bu gün Azərbaycan ordusunun arsenalında olan silah-sursata və texnikaya dünyanın əksər dövlətlərinin orduları həsəd apara bilər. Hazırda Azərbaycan Silahlı Qüvvələri regionun qüdrətli hərbi gücüdür. Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Həmçinin beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir və bir sıra orduların arsenalında yer alır. Ən mühümü odur ki, ölkəmiz işğalçı Ermənistan qarşısında əzici üstünlüyə malikdir. Bura silahlanma ilə bağlı vəziyyət də daxildir.

Belə bir vaxtda erməni tərəfini narahat edən başlıca məqamlardan biri budur ki, Azərbaycan yaxın tezlikdə Türkiyədən yeni silahlar alaraq üstünlüyünü daha da artıracaq. Bura ilk növbədə döyüş dronları daxildir. Erməni eksperti Vitali Manqasaryan bu xüsusda vurğulayır ki, Qarabağda vəziyyət gərginləşəcəyi təqdirdə Azərbaycan müasir türk hücum dronlarından Ermənistan ordusuna qarşı istifadə edəcək. Bunlar Türkiyənin Suriyadakı rəqiblərini məhv edən pilotsuz təyyarələrdir. Onun sözlərinə görə, bu və digər halları nəzərə alaraq, ermənilər hadisələrin hər cür inkişafına hazır olmalıdır: "Müharibə ilə bağlı Azərbaycan üçün əlverişli şərait yaranıb. Buna görə də ordu və cəmiyyət buna hazır olmalıdır". Dünya Suriyadakı hərbi əməliyyatlarda olduqca uğurlu nəticələr göstərən Türkiyənin hərbi təyyarələrindən danışır. Azərbaycan onlardan istədiyi qədər istədiyi vaxt ala bilər". Bütün bunlar bir daha təsdiq edir ki, silahlanma məsələsində də Ermənistan həmişə Azərbaycandan çox geridə qalacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycanın açdığı enerji şaxələndirmə imkanı Türkmənistan üçün həyat əhəmiyyətli faktora çevrildi

**Bu gün Azərbaycanda yaradılan nəqliyyat infrastrukturu, enerji resurslarının ixrac marşrutları Mərkəzi Asiya ölkələrinin də xüsusi diqqət mərkəzində yer alır. Belə görünür ki, Azərbaycanda yaradılan bu imkanlardan istifadə etməyə çalışan ölkələrdən biri də Türkmənistandır.**

Proseslərin təhlili göstərir ki, qarşıdakı dövr ərzində Türkmənistan həm Azərbaycan üzərindən dünya bazarlarına daha çox neft çıxarmaq, həm qaz nəqlini reallaşdırmaq, həm də digər yüklərin çatdırılmasını təmin etməyi düşünür. Hər halda, hər iki ölkə prezidentinin Bakıda mətbuata səsləndirdikləri bəyanatlarda da bunu görmək olar.

Məsələ ilə bağlı Prezident İlham Əliyev qeyd edib: "İqtisadi-ticari sahədə işlər yaxşı gedir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika müşahidə olunur. Biz nəqliyyat-logistika sahəsi haqqında ətraflı söhbət etdik, müvafiq dövlət strukturlarına bu istiqamətdə işin intensivləşdirilməsinə, ölkələrimizin tranzit-nəqliyyat potensialının möhkəmləndirilməsinə dair səylərin əlaqələndirilməsi barədə tapşırıqlar verdik". Azərbaycan Prezidenti deyib ki, həm Türkmənistanda, həm də Azərbaycanda nəqliyyat infrastrukturuna çox böyük diqqət yetirildiyini nəzərə alaraq, biz bu infrastrukturun modernləşdirilməsi yolunda praktiki olaraq paralel addımlayırıq: "Bizim əsas limanlarımız əlaqələndirilmiş, uzlaşdırılmış şəkildə işləyir və ərazilərimizdən keçən yükləri artırmağa imkan verir. Biz digər ölkələrə də öz tranzit potensialımızı təqdim edirik. Hesab edirəm ki, biz həmin potensialın möhkəmləndirilməsi barədə mühüm qərar qəbul etmişik. İnfrastruktur imkanlarının təmin edilməsi və yük axınının artırılmasına şərait yaradılması üçün əlavə tədbirlər görüləcək. Təbii ki, qonşularımızla sıx qarşılıqlı əlaqədə və xoş münasibətlərdə olduğumuza görə həmin dövlətlərdən daha çox yükgöndərənləri cəlb edəcəyik və mahiyyət etibarilə uzunluğu min kilometrlərlə ölçülən yeni nəqliyyat dəhlizi yaradacağıq. Beləliklə, ölkələrimizin daha da inkişaf etməsi üçün əlverişli şərait yaradacaq, regional əməkdaşlığı möhkəmləndirəcəyik. Əlbəttə, biz enerji sektoru ilə bağlı məsələlər barədə də danışdıq. Burada da yaxşı nəticələr var, çoxdan əməkdaşlıq edirik. Biz bu istiqamətdə gələcək addımlar barədə də danışdıq. Xalqlarımızın etnik yaxınlığı, dillərimizin yaxınlığı, ortaq mədəniyyətimiz nəzərə alınmaqla, ölkələrimiz üçün humanitar əməkdaşlığın vacibliyini qeyd etdik".

Elə Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun da diqqət yetirdiyi əsas sahələrdən biri məhz energetika ilə bağlı olub:"Energetika sahəsi üzərində prioritet məsələ kimi dayandıq. Həm Türkmənistan, həm də Azərbaycan karbohidrogen ehtiyatları ilə zəngin, özünü təmin edən dövlətlərdir. Energetika məsələlərinə gəldikdə, biz bu ehtiyatların şaxələndirilməsinin tərəfdarıyıq. Biz belə bir ideya irəli sürürük ki, bu şaxələndirmə istehsalçı, daşıyıcı və son istehlakçı arasında paritet əsasda qurulmalıdır. Buna görə də biz bu gün razılaşdıq ki, bundan sonra da qaz, neft-kimya və başqa sahələr üzrə birgə işləyəcəyik". Ekspertlər tərəflərin enerji məsələsinə xüsusi diqqət yetirməsini səbəbsiz saymır. Belə görünür ki, qarşıdakı dövr ərzində bu sahədə tərəflərin əməkdaşlığı əhəmiyyətli dərəcədə dərinləşəcək. Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov da qeyd edir ki, Azərbaycanın regionda gerçəkləşdirdiyi enerji və nəqliyyat layihələri Türkmənistanın da marağındadır. Rəsmi Aşqabad Azərbaycan üzərindən öz neftini Avropaya ixrac etmək istəyir: "İki ölkə arasında dərin tarixi, mədəni və dini bağlar var. Bundan əlavə Azərbaycan və Türkmənistan arasında iqtisadi, siyasi münasibətlərdə müsbət xəttlə inkişaf edir. Ortaq iqtisadi maraqlar Türkmənistanı Azərbaycan üçün partnyor ölkəyə çevirib. Türkmənistan da Azərbaycan kimi neft və qaz ixrac edən ölkədir. Bu gün Türkmənistan öz qazını İran və Rusiya üzərindən ixrac edir. Hazırda koronavirus epidemiyasına görə İranla sərhədlərini bağlayıb. Bu, istər-istəməz, Türkmənistan iqtisadiyyatına təsirini göstərib. Rusiya üzərindən neft və qaz ixracı isə nisbətən bahadır. Bu səbəbdən Türkmənistan öz qazını Azərbaycan üzərindən Avropaya ixrac etmək istəyir. Mövcud vəziyyətdə türkmən qazının Avropaya nəqlinin ən rahat və ən ucuz yolu Azərbaycan üzərindəndir. Bu baxımdan sözügedən səfər ilk növbədə iqtisadi əhəmiyyət daşıyır".




Burada onu da xatırlamaq yerinə düşərdi ki, cari ildə Azərbaycan qazının Avropaya çatdırılması reallaşacaq. Bu isə həm Türkmənistanın, həm də Avropanın özünün diqqətini cəlb edir. Belə ki, türkmən tərəfi üçün Azərbaycan üzərindən öz qazını Avropaya çatdırmaq indi daha cazibədardır. Avropa da Azərbaycan üzərindən daha çox qaz almaq isətyir və belə mənbə qismində də məhz Türkmənistan çıxış edir. Bu mənada, məhşur "Transxəzər" kəmərinə maraq daha da artır.

Aydındır ki, "Transxəzər" kəməri çəkilsə, Avropa üçün Xəzər daha maraqlı olacaq. O da faktdır ki, "Transxəzər" qaz kəməri Türkmənistan mavi yanacağının Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur, çünki maye qazın belə qısa məsafədə dəniz yolu ilə nəql edilməsi sadəcə sərfəli deyil.

Eləcə də "Cənub Qaz Dəhlizi"nin layihə gücünün 31 milyard kubmetrə bərabər olduğunu nəzərə alsaq, "Transxəzər" qaz kəmərindən qaz nəqlini daha da artırmaq mümkün olacaq. "Transxəzər" qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Sadəcə, "Transxəzər" boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidir. Türkmənistanın və Azərbaycanın mövcud qaz yataqlarını birləşdirən interkonnektorun tikintisinə cəmi 500 milyon dollar xərc çəkmək lazım gələcək. İnterkonnektorun olması Avropanın uzunmüddətli enerji təhlükəsizliyinə şərait yaradan böyük nailiyyət sayılır.

***Nahid SALAYEV***

**Koronavirus xəstəliyi can almaqda davam edir. Bu virusla mübarizə aparmaq üçün ölkəmizdə də lazımi işlər görülür. Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlər davam etdirilir.**



*"Tətbiq olunan tədbirlər əhalinin sağlamlığının qorunmasına yönəldiyindən, karantinə alınmış vətəndaşlar bu tipli tədbirləri anlayışla qarşılayıb, məsuliyyətlə yanaşmalıdırlar"*

# Koronavirus-karantin tədbirlərindən boyun qaçıranların hüquqi məsuliyyət məsələsi...

***Samir Məmmədov:** "Karantinə yerləşdirilən vətəndaşlara normal zəruri şərait yaradılmalıdır ki, onların hüquqları pozulmasın"*

Hazırda bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımdan tədbirlər həyata keçirilir, ictimai məkanlarda dezinfeksiya işləri aparılır və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır.

Məlumdur ki, Azərbaycan ərazisinə keçən şəxslər, həmçinin ölkə ərazisindəki vətəndaşlarda virusun əlamətləri aşkarlandıqda, təlimata uyğun olaraq, onlar karantinə götürülərək müvafiq xəstəxanalara yerləşdirilir, həmin müddətdə müəyyən testlər və müalicə aparılır. Ancaq bəzi hallarda koronavirus xəstəliyinin əlamətləri olanlar həkim briqadalarına qarşı zor tətbiq edir, karantin zonasını icazəsiz tərk edir və ya müayinə və müalicə olunmaqdan imtina edir.

Koronavirusun yayılması təhlükəsinə qarşı görülən tədbirlərin normal şəraitdə həyata keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabineti yanında operativ qərargah hüquq-mühafizə orqanlarına belə halların qarşısının alınması ilə bağlı göstəriş verib. Belə ki, karantin normalarını pozan, tibbi heyətin normal iş rejiminə mane olan hər bir şəxsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcək.

Hüquqşünas Samir Məmmədov bildirdi ki, karantin bölgəsində saxlanılan şəxslər fövqəladə vəziyyət, hərbi vəziyyət və dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejimlərinin dövründə tətbiq edilən tədbirlərə, müəyyən olunmuş qaydalara riayət etməlidirlər: "Hərbi və fövqəladə vəziyyət halları və tətbiqi qaydası Azərbaycan Respublikası Konstitusiyasının 111 və 112-ci maddəsi ilə, dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejimi isə "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanunla müəyyən edilir. Həmin halların heç biri hazırda mövcud olmadığından, karantin tələblərinin pozulmasına görə qanunla inzibati məsuliyyət tətbiq oluna bilməz".

Ancaq həmsöhbətimiz onu da vurğuladı ki, tətbiq olunan tədbirlər əhalinin sağlamlığının qorunmasına yönəldiyindən və təhlükənin qlobal xarakter almasını nəzərə alaraq, bununla bağlı karantinə alınmış vətəndaşlar bu tipli tədbirləri anlayışla qarşılayıb, məsuliyyətlə yanaşmalıdırlar: "Eyni zamanda aidiyyəti səhiyyə qurumları, digər dövlət orqanları karantinə yerləşdirilən vətəndaşlara normal zəruri şərait yaratmalı və karantinə yerləşdirmək adı ilə onların hüquqlarının pozulması hallarına yol verməməlidir".

***Günel CƏLİLOVA***



**BŞPİ-nin sürücülərə etdiyi xəbərdarlıqda həqiqətən çox maraqlı bir detal var - "viktim davranış"...**

**Nəqliyyat vasitələrindən oğurluq cinayətlərinin açılması ilə bağlı daxil olan müraciətlərə operativ reaksiya verilir.**

Bakı şəhər BPİ Mətbuat Xidmətindən "Trend"in sorğusuna cavab olaraq bildirib ki, qabaqcıl metodoloji kriminalistik üsullar tətbiq olunmaqla keçirilən əməliyyat-axtarış tədbirlərilə paytaxtda cari ildə 143 hadisənin üstünün açılması təmin olunub:

"Hər bir fakt üzrə şübhəli şəxslərin yeri və şəxsiyyəti müəyyən olunaraq istintaqa təhvil verilib.

Fəaliyyət sahəmiz təkcə cinayətlərin qarşısının alınması və açılması ilə yekunlaşmır. Bizim üçün əsas meyar baş verən cinayətin üstünün açılması ilə yanaşı, qabaqlayıcı-profilaktik tədbirlərin genişlənməsidir. Tərəfimizdən analitik təhlil və araşdırmalar aparılmaqla qabaqlayıcı tədbirlər işlənib hazırlanaraq, icraya yönəldilir. Burada əsas məqsəd paytaxt sakinlərinin maarifləndirilməsidir.

Ümumləşdirmələr göstərir ki, nəqliyyat vasitələri əsasən sahibinin viktim davranışı (zərərçəkmiş şəxsin cinayətin törədilməsi üçün yaratdığı şərait) zəminində talana məruz qalır. Bu, həm də əmlak sahibinin öz mülkiyyətinə olan münasibətindən asılıdır. Nəqliyyat vasitələrinin sahibləri avtomobilləri əsasən mühafizə olunmayan, işıqlandırılmayan, yaxud "Təhlükəsiz Şəhər" kameralarının əhatə dairəsindən kənar, gediş-gəlişin az olduğu küçələrdə saxlamaları müşahidə olunur. Bütün bunları nəzərə alaraq, nəqliyyat vasitələri park olunarkən sürücülər elementar qaydalara əməl etməli, viktimoloji şəraiti nəzərə almalı, avtomobillərin salonunda qiymətli əşyaların saxlanmamasına fikir verməlidir".

Məlumatda bildirilir ki, Daxili İşlər nazirinin rəhbərliyi altında Bakı şəhər BPİ-nin rəhbərliyi paytaxt ərazisində hüquqazidd əməllərin, o cümlədən hazırlanan, törədilən cinayət faktlarının açılması, qarşısının alınması və araşdırılmasına nəzarətin həyata keçirilməsini təmin etməklə, bütün zəruri əməliyyat-istintaq xidmətlərinin, həmçinin rayon polis orqanlarının bu istiqamətdə tədbirlərinin görülməsini diqqət mərkəzində saxlayır.

# Azərbaycan ali məktəblərində tədris ilinin müddəti uzadıldı - 15 iyunadək...

**Azərbaycanın ali məktəblərində tədris ilinin müddəti 15 gün uzadılıb. "Trend"in məlumatına görə, bu barədə Təhsil nazirinin müavini Firudun Qurbanov əmr imzalayıb.**



Belə ki, dərslər mayın 30-da deyil, iyunun 15-də bitəcək. İmtahanlar isə 15 iyunda başlayacaq və 13 iyulda başa çatacaq.

Buraxılış kursları istisna olmaqla digər tələbələrin dərsləri martın 27-də başlayacaq və mövcud akademik təqvimlə müəyyən edildiyi kimi mayın 30-dək deyil, iyunun 15-dək davam edəcək (15 gün - 2 həftə artırılır). Müvafiq olaraq imtahan sessiyasına mövcud akademik təqvimdə ayrılan həftələrin sayı 5 deyil, 4 həftə müəyyən edilib.

Ali təhsil müəssisələrinin sonuncu kurs tələbələrinin nəzəri təlim müddətinin başa çatdığını, onların hazırda təcrübədə olduğunu nəzərə alaraq müvafiq ixtisaslar üzrə sonuncu kursda təhsil alan tələbələrin ("Təhsil" ixtisasları qrupuna daxil olan ixtisaslar (pedoqoji ixtisaslar) üzrə təhsil alanlar istisna olmaqla) tədris qrafiki dəyişdirilmir. Yeni dövlət attestasiyasının keçirilməsi qrafikə uyğun iyun ayının sonuna qədər aparılacaq.

"Təhsil" ixtisasları qrupuna daxil olan ixtisaslar (pedoqoji ixtisaslar) üzrə tələbəlrin təcrübəsi (təcrübə orta ümumtəhsil məktəblərində aparıldığına və burada dərslər iyunun 14-ə qədər davam etdiyinə görə) iyunun ayının 15-nə qədər davam etdiriləcək və bu zaman dövlət attestasiyası iyunun 15-dən iyulun 13-nə qədər aparılacaq.

# Yas mərasimlərində kütləviliyin azaldılması - "Bakı-Xəbər" düz 9 il qabaq ayrıca yazı müsabiqəsi də keçirmişdi

***Şəmsəddin Əliyev:** "Bakı-Xəbər"in 2011-ci ildə həyata keçirdiyi layihənin mövzusu bu gün də aktualdır və onun cəmiyyət üçün gərəkli olduğu bir daha öz təsdiqini tapır"*

**Bildiyimiz kimi, dünyanı dəhşətə salan koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması üçün dövlət tərəfindən əhatəli tədbirlər həyata keçirilir. Artıq bir sıra kütləvi tədbirlər, o cümlədən də Novruz bayramı şənlikləri təxirə salınıb.**

Koronavirus təhlükəsinin qarşısının alınması üçün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma risqi yüksək olduğundan, qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınmasını, yas mərasimlərinin isə kütləvi keçirilməməsini tövsiyə edib.

Qeyd edək ki, "Bakı-Xəbər" qəzeti olaraq hər zaman yas mərasimlərinin təşkilində, ümumiyyətlə bu proses zamanı baş verən neqativliklərə, əyintilərə, israfçılığa, sui-istifadə hallarına, qiymət dəllallığına qarşı mübarizə aparmışıq. Bizi yaxından izləyən oxucularımız yaxşı bilirlər ki, 9 il bundan əvvəl "Bakı-Xəbər" "İslamda yas mərasimləri və əyintilər" mövzusunda layihə həyata keçirib və o layihə çərçivəsində də müsabiqə elan edib. 2011-ci il fevralın 20-də elan edilən müsabiqə avqustun 20-də başa çatıb və qaliblərin mükafatlandırılması həmin ilin sentyabr ayının 20-də baş tutub. Üç ay müddətində davam edən müsabiqəyə 61 yazı təqdim edilib. Onu da vurğulayaq ki, müsabiqədə həm peşəkar, həm də həvəskar jurnalistlər iştirak edib. Hətta həbsxanalardan da müsabiqəyə yazı təqdim edənlər olub. Həmin yazılardan 13-ü seçilərək qalib elan olunub. Müsabiqənin nəticələrinə görə, 1 yerin sahibinə 1000 (min), ikinci yeri qazanan yazının müəllifinə 500 (beş yüz), üçüncü yeri tutanlara isə 300 (üç yüz) manat pul mükafat verilib. Onu da vurğulayaq ki, layihə sırf "Bakı-Xəbər" qəzetinin öz maliyə resursları hesabına həyata keçirilmişdi.

Beynəlxalq Mətbuat Mərkəzində qaliblərin mükafatlandırılması keçirilmişdi və həmin mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri Hacı Mirəziz Seyidzadə, KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli, millət vəkili Aqil Abbas, eləcə də digər dövlət və ictimaiyyət nümayəndələri iştirak edərək layihənin məqsədini müsbət qiymətləndiriblər.

Layihə çərçivəsində "Bakı-Xəbər"in öz əməkdaşları da silsilə araşdırma yazıları, müsahibələr təqdim ediblər ki, bu da yas mərasimlərinizin keçirilməsində yol verilən nöqsanların ifşa edilməsi ilə bağlı olub.

Tanınmış ziyalı və "İslamda yas mərasimləri və əyintilər..." mövzusunda qəzetimizin həyata keçirdiyi layihədə aktiv iştirak edən Şəmsəddin Əliyev bizimlə söhbətində bildirdi ki, "Bakı-Xəbər" qəzetinin 9 il əvvəl həyata keçirdiyi layihə, bu layihədə əks olunan problemlər bu gün də aktualdır. "Çox yaxşı yadımdadır ki, "Bakı-Xəbər" qəzeti "İslamda yas mərasimləri və əyintilər" adlı bir layihə həyata keçirmişdi, mən özüm də həmin layihəni tədqir etmişəm, hətta xüsusi yazı ilə də çıxış etmişəm.

"Bakı-Xəbər"in 2011-ci ildə həyata keçirdiyi layihənin mövzusu bu gün də aktualdır və onun cəmiyyət üçün gərəkli olduğu bir daha öz təsdiqini tapır. Deyim ki, islam ilahidən gələn bir din kimi insanlar arasında izzət və hörmət üzərində qurulan ideologiyaya sahibdir. Bu ideologiyanın əsas qayəsi və fəlsəfəsi ədalətdən və haqdan, israfçılıqdan uzaq olmaqdan, Haqq dünyasına qədər nəfsi ilə mübarizədən, yas mərasimlərini dəbdəbədən uzaq təşkilindən, həm də məzarın mümkün qədər sadə olmağından ibarətdir. Yas mərasimlərin verilməsi, dəfn günündən 40 gününə qədər, daha sonra ilin də verilməsi israfçılıqla müşayiət olunmamalıdır".

Ş.Əliyev vurğuladı ki, yas mərasimlərinin keçirilməsində kütləviliyin məhdudlaşdırılması özü də bu gün çox aktual və vacibdir:"Yas mərasimlərinin bu cür israfçılıqla təşkil olunması, bir sıra məscidlərdə bu mərasimlərin keçirilməsi düzgün deyil. Hesab edirəm ki, Nazirlər Kabineti yanında operativ qərargahın yas məclislərində kütləviliyin məhdudlaşdırılması ilə bağlı verdiyi tövsiyəyə əməl olunmalıdır. Bu tövsiyə yerində və məqamında verilən bir tövsiyədir. Çünki bu əhalinin, insanların koronavirusa yoluxması risqini azaldır. Yas mərasimlərinə insanların kütləvi axın etməsi bu virusun yayılma ehtimallarını artıra bilər, ona görə də yas mərasimlərində kütləvi iştirakın məhdudlaşdırılması ilə bağlı tövsiyəyə hər kəs əməl etməlidir. Bu tövsiyənin verilməsində əsas məqsəd əhalinin sağlamlığının qorunması ilə bağlıdır və buna da hər bir vətəndaş ciddi riayət etməlidir. Fikrimcə, bu tövsiyəni heç müzakirə etməyə ehtiyac yoxdur. Hər bir vətəndaş, qurum, məscidlər, yas mərasimlərinin keçirildiyi məkanlar dövlətin ali məqsədinin həyata keçirilməsinə dəstək verməlidir. Vətəndaşlar dövlət qurumlarının verdikləri tövsiyələrə ciddi əməl etməli və həm özlərinin, həm də digər insanların sağlamlığını qorumaq üçün kütləvi tədbirlərdən, yığıncaqlardan uzaq olmalıdırlar. Bilirsiz ki, bizim məscidlərin bir çoxunda, mərasim evlərində yas mərasimlərinin keçirilməsinə böyük meydan verilir. Burada mütləq şəkildə məhdudlaşdırmalar aparılmalıdır"-deyə Ş.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***



*"Yas mərasimlərinə insanların kütləvi axın etməsi bu virusun yayılma ehtimallarını artıra bilər, ona görə də yas mərasimlərində kütləvi iştirakın məhdudlaşdırılması ilə bağlı tövsiyəyə hər kəs əməl etməlidir"*

**Bazar ertəsi OPEC+ sazişinin dağılması fonunda "Brent" markalı neftin qiyməti üçdə bir qədər azalaraq 31.43 dollara düşdü. Qiymətlərin düşməsi Rusiyanın OPEC-in neft ixrac edən ölkələr təşkilatı ilə sazişdə iştirakdan imtina etməsi ilə nəticələndi.**

*"Rublun ucuzlaşması bizim məhsulların orada rəqabət qabiliyyətinə problem yaradacaq, bu əslində bizim dirçəlməkdə olan qeyri-neft sektoru üçün arzuolunmazdır"*

# Rusiyada rublun ucuzlaşması Azərbaycana bəzi cəhətlərdən çətinlik yarada bilər

***Samir Əliyev:** "Rublun ucuzlaşması bizim ixracatımıza çətinlik yaradacaq"*

Rusiya milli valyutası rublun son günlər dollar qarşısında 10-15% dəyər itirməsi isə manata olan təzyiqləri də artırıb. Məlumdur ki, Azərbaycan-Rusiya iqtisadi əlaqələri var. Rusiya rublunun dəyərdən düşməsi Azərbaycan iqtisadiyyatına necə təsir edəcək?

İqtisadçı Samir Əliyev bildirdi ki, rublun dəyərdən düşməsinin hazırkı anda Azərbaycan manatına təsiri daha çox neftin qiymətindən asılıdır. Rusiyada rublun ucuzlaşmasının Azərbaycana təsiri manatın üzən məzənnəyə keçməsi halında müəyyənləşərdi: "Baxmayaraq ki, bu gün qeyri-neft sektorunun əsas hissəsi Rusiyanın payına düşür, amma bizim qeyri-neft sektoru bir o qədər də yüksək deyil. Son məlumata görə, 1 ildə 2 milyard dollardan çox qeyri-neft məhsulu ixrac etmişik və onun əsas hissəsi Rusiyanın payına düşür.

Bu o deməkdir ki, rublun ucuzlaşması bizim ixracatımıza çətinlik yaradacaq.

Biz Rusiyaya daha çox meyvə-tərəvəz, şəkər ixrac edirik. Rublun ucuzlaşması bizim məhsulların orada rəqa-



bət qabiliyyətinə problem yaradacaq. Bu əslində bizim dirçəlməkdə olan qeyri-neft sektoru üçün arzuolunmazdır. Lakin Azərbaycan manatına birbaşa təsiri yoxdur".

**Ekspert hesab edir ki, rublun ucuzlaşmasının Azərbaycan manatına təsiri neftin ucuzlaşmasından ola bilər. Neftin qiyməti təxminən 50 dollara qalxarsa, sabitlik yaranar. Nə qədər ki neftin qiyməti 40 dollardan aşağıdır, gərginlik davam edəcək.**

*Günel CƏLİLOVA*

**Son illərdə mütəmadi olaraq qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə "Made in Azerbaijan" brendinin təbliği ilə bağlı dəstək tədbirləri həyata keçirilir, dövlət vəsaiti hesabına sahibkarlar ixrac missiyalarında, beynəlxalq sərgilərdə iştirak edirlər.**

*"Ticarət evlərinin açılması praktiki olaraq Azərbaycan məhsullarının daha geniş coğrafiyaya ixrac edilməsi və sözügedən ölkələrlə xarici ticarət əlaqələrinin genişləndirilməsinə xidmət edir"*

# Xarici ölkələrdə Azərbaycanın ticarət evləri şəbəkəsinə maraq artır - Türkmənistan da qoşuldu

***Vüqar Bayramov:** "Ticarət evləri həmin ölkələrdə Azərbaycan məhsullarının tanıdılması, birgə layihələrin həyata keçirilməsi və sərmayə qoyuluşlarının reallaşdırılmasına xidmət edəcək"*

İxracın stimullaşdırılması tədbirləri çərçivəsində prosedurlar sadələşdirilir, yerli məhsullarımızın ixrac potensialı yüksək olan ölkələrdə ticarət nümayəndələri fəaliyyət göstərir, ticarət və şərab evlərinin yaradılması ilə bağlı işlər davam etdirilir. İndiyədək Azərbaycanın xarici ölkələrdə 10-dan çox ticarət və şərab evi açılıb.

Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqda davam edir. Bu günlərdə ölkəmizdə səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatlarla çıxış edərkən deyib ki, Bakıda Türkmənistan ticarət evinin və Aşqabadda Azərbaycan ticarət evinin təsis edilməsi barədə razılıq əldə olunub:"Bu, əlbəttə, əmtəə dövriyyəsinin artırılması üçün bizə daha yaxşı imkanlar yaradacaq. Türkmənistanın və Azərbaycanın hələ istifadə edilməmiş potensialı var".

Millət vəkili, iqtisadçı alim Vüqar Bayramov bildirdi ki, xaricdə Azərbaycan Ticarət evlərinin açılması "Made in Azerbaijan" brendinin tanıdılması, ölkəmizdə istehsal olunan məhsulların xarici bazarlara çıxışının təmin edilməsi baxımından əhəmiyyətli addımdır: "Artıq Çində Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Eyni zamanda, MDB məkanında artıq belə ticarət evləri var. Ticarət evlərinin açılması prakitiki olaraq Azərbaycan məhsullarının daha geniş coğrafiyaya ixrac edilməsi və sözügedən ölkələrlə xarici ticarət əlaqələrinin genişləndirilməsinə xidmət edir. Bu, ondan xəbər verir ki, Azərbaycan xüsusən də qeyri-neft




məhsullarının fərqli məkanlara ixrac edilməsində maraqlıdır. Sözsüz ki, bu kontekstdən bizim üçün yeni bazarlar əhəmiyyətlidir."

V.Bayramov onu da əlavə etdi ki, Azərbaycan ənənəvi bazarlarla yanaşı, yeni bazarlara çıxış imkanları əldə etməyə çalışır: "Bununla bağlı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən xüsusi göstərişlər var. Ticarət evlərinin yaradılması da Azərbaycanın qeyri-neft məhsullarının yeni bazarlara ixrac edilməsi məqsədi daşıyır.

**Bundan əlavə, Ticarət evləri həmin ölkələrdə Azərbaycan məhsullarının tanıdılması, birgə layihələrin həyata keçirilməsi və sərmayə qoyuluşlarının reallaşdırılmasına xidmət edəcək. Bu baxımdan Ticarət evləri hətta ölkədən kənarda - xaricdə yaradılsa da belə, məqsəd Azərbaycanın qeyri-neft sektorunda istehsal etdiyi məhsulların həmin ölkələrə ixracının təmin edilməsi, bu sektora sərmayələrin cəlb edilməsi olduğu üçün təbii ki, bu da iqtisadiyyatın diversifikasiyasına müsbət təsir göstərir."**

*Günel CƏLİLOVA*

# İgid ömrü

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

## (Altıncı yazı)

***(Əvvəli ötən saylarımızda)***

- Düzdü. Sonra məni soruşub. Allahverdinin oğlu Mehdi ona yalan satıb ki, guya məni ermənilərin vurub öldürdüyünü görüb, Mehdi də meyitimin üstündən keçib qaçıb gəlib. Ona görə Füzuli mənim meyitimin axtarışına qayıdıb bu dəfə (yenə də ağlayır). Bunu özümə bağışlaya bilmirəm. Biz bir-birimizə çox bağlı adam idik. Bütün uşaqlığımız, gəncliyimizin müəyyən bir hissəsi bir yerdə keçmişdi, çox istəyimiz vardı bir-birimizə, xüsusilə belə anlar insanı çox bağlayır bir-birinə, üstəgəl də Zamin kimi istiqanlı, vətənpərvər, igid bir oğul... Bir gün sonra isə... mən onu xəstəxanada ziyarət elədim. Artıq bədəni şişmişdi, dedilər boğazından güllə yarası alıb, danışa bilmir.

**- Mehdi bu sözü niyə deyib?**

- Nə bilim? Yalandanmı deyib, qəsdlə deyib, yoxsa yanılıb? Özü bilər, allahı bilər?! Bilirsiniz niyə tərəddüd edirəm bu suala dəqiq cavab verməyə? Əslində həmin gün bir "qiyamət günü" yaşantısı var idi. Necə ki, deyirlər qiyamətin günü heç kim heç kimə kömək edə bilməyəcək, bax belə bir vəziyyət baş verdi orda: ana balasını, ata qızını, qız atasını, oğullar var idi ki, anasını, bacısını qoydu qaçdı. Elə bil insanların gözü böyümüşdü. Bəlkə də qarışdırırdılar ölənləri bir-biriləri ilə. Bəlkə də taniya bilmirdilər. Amma hansı səbəbdən baş verməsindən asılı olmayaraq, fakt faktlığında qalır, nəticədə biz Zamin kimi bir vətənpərvər, qoçaq oğulu itirmişik.

...Füzuli yenidən belə bir müdhiş mənzərənin içinə - dostunun meyitinin ardınca yola düşüb. Bu adam igid deyil, qəhrəman deyil, bəs nədir?!..və burda da erməni gülləsinə tuş gəlir. "O gəlməyə də bilərdi. Allahımıza and olsun, tam səmimi deyirəm, oranı keçib gələnlər arasında xeyli "bağ belə-bostan belə" deyənlər var, amma onların çoxu ana-bacısını atıb qaçdı". Füzulinin etdiyi bu hərəkətsə hər oğulun, hər kişinin işi deyildi. Füzulini Füzuli eləyən elə bu əlamətləri idi. Görün bu adam Vətəninə, yurduna, dostuna nə qədər bağlı, nə qədər gərəkli bir oğul imiş! Heyf!

Amma Xocalıda təkcə Füzuli kimi oğulların qanı tökülmədi torpağa. Torpağa həmin gecə çox şeylər gömüldü: namus, qeyrət, ləyaqət. Bunlardan da betəri xəyanət idi... Nazimi - canlı şahidi dinlədikcə biz də şahid kəsilirik yazdıqlarıma. Həmsöhbətimsə bir qədər köks ötürərək, yenidən həyəcanla davam edir. Əslində onun danışdıqlarını nə həyəcansız nəql etmək, nə də ki, həyəcansız dinləmək mümkündür:

- Adam tanıyıram, "Azərbaycan Bayrağı" ordeni alıb. Amma fakt budur ki, o adam öz atasının meyitinin ardınca getmədi. Ondan qəhrəman olar?!.. Üstəlik, haqqın olmaya-olmaya necə belə bir tələb qoya, istəyə bilərsən ki, sənə orden, medal, nə bilim nələr versinlər?! Bəs beləleri düşünmürlər ki, Xocalıda bizim namus-qeyrətimiz tapdalandı, kişiliyə, namusa xas olan nə varsa əldən getdi, qürurumuz da, mənliyimiz də getdi?! Bir sözlə ifadə eləmək çətindir bu yaşantıları, amma yenə də bir sözlə deyim ki, həmin gecə nəyimiz vardısa itirdik. Füzuli kimi, Əlif kimi təpədən-dırnağa qeyrətli oğlanlarımızı itirdik. Eybi yox, oğul şəhid olar. Qanı torpağına tökülər. Bəs heç olmasa biz onların qanını mükəmməl şəkildə alıb təskinlik tapa bilirikmi?! Əlbəttə ki, yox. Düşünürəm, ancaq torpaqlarımız azad olunsa biz onların qanını alar, bir qədər rahatlıq tapa bilərik. Siz bir tarixin təkrarına da fikir verin. Yaşlılar danışırdılar ki, 1905, 1907, 1908-ci illərdə həmin o Kətik dağının ətəyində, bu dəfə də xocalıları qırdıqları Qaraqayada o zaman da ermənilər beşatılanlarla eynən camaatın qabağını kəsib, qadınları süngüyə keçirib, kürəklərinə qaynar samovarlar bağlayıb həmin Qarqar çayına tökübmüşlər. 70 il sonra bu hadisəni, bu vəhşiliyi - Xocalı soyqırımını daha dəhşətli formada elə həmin ərazidə törətdilər, təkrarladılar. Nə dəyişmişdi ki?! Bircə silahların növündən və müasirliyindən başqa. Ermənilər həyasızcasına deyirlər ki, guya əhaliyə Kətik tərəfdən dəhliz saxlayıblar çıxmağa. Yaxşı, bəs dəhliz vermişdinizsə, o ərazidə meyitləri yığan şahid kimi deyirəm ki, insanların başını niyə kəsmişdiniz, baş dərilərini niyə soymuşdunuz, gözlərini niyə çıxarmışdınız? Bu, dəhliz vermək yox, əslində dərs vermək idi azərbaycanlılara.

**- Füzuli sizi axtarmağa gedərkən yaralanıb Ağdam xəstəxanasına gətirilib, siz isə bu zaman öldürülmüş, təhqir edilmiş həmyerlilərinizin meyitlərini götürməyə getmisiniz...**

- Yox, artıq razılaşma olandan sonra mən dörd nəfərlə gəldim xocalıların əsas məhv edildiyi Qaraqaya deyilən əraziyə. Burada meyitləri, onların durumunu görəndə adam dəhşətə gəlirdi. Başları soyulmuş, gözləri çıxarılmış, daha nə bilim nələr... Biz burada Aqilin də artıq keçinmiş cəsədini, o cümlədən Əlif Hacıyevin də nəşini götürdük. Orda tanıdığım adamların tanınmaz hala salınmış meyitlərini görəndə hönkür-hönkür ağladım. Mən ilk dəfəydi görürdüm ki, insanın başının dərisi nə qədər qalın olurmuş. Bunları görmək, üstəlik maşına yığıb ermənilərin gözlərinin müşayiəti altında ərazidən çıxarmaq...deyilməsi, yazılması tamamilə mümkünsüz olan dəhşət idi. Qəribə burası idi ki, birdən elə bil məndə daşlaşma getdi. Əvvəl meyitləri görəndə özümdən biixtiyar gözlərimdən yaşın axmasına baxmayaraq, sonra qeyd etdiyim bu dəhşətlərin şahidi olduqca daha nə qədər ağlamaq istəsəm də ağlaya bilmədim. Artıq məndə belə bir təsəvvür formalaşırdı ki, bəlkə elə insan bir-biri ilə belə rəftar eləməlidi?! Burda ermənilər məni tanıyıb guya qınaq eləmək istədilər ki, siz də Xocalı aeroportunda erməniləri belə incidirdiniz. Mən erməni dilini bilirəm. Cavab verdim ki, biz aeroportda qanunları qorumuşuq, amma qocaların, körpələrin başına belə müsibətlər gətirməmişik. Sizin etdiklərinizsə heç bir bəşəri əndazəyə sığmayan tarixi cinayətdir.

### 366-cı alayın zabitlərinin 52-si erməni olub

O zaman ermənilərin qarşısında, bu dəhşətin içərisində gözündən yaş çıxmayan sabiq döyüşçü indi bu sözləri mənə göz yaşları içərisində dilə gətirirdi. Burda cilovlaya bilmirdi daxilindən gələn, illərlə ürəyində qubar bağlamış hisslərini. Onu yenidən nisbətən sakit - Xocalılı, Füzulili günlərinə qaytarıram ki, bir qədər də özünü o çağlarda hiss edib sakitləşsin.O günlər, əlbəttə ki, xoş günlər olmasa da, hər halda mübarizə aparıldığı, bəzi məqamlarda bizimkilərin - torpağın halalca sahiblərinin ermənilərə dərs verdiyi çağlar kimi yaddaşlara həkk olunub...

**- Xocalıdakı döyüşləriniz və ya belə demək mümkünsə, lokal döyüşləriniz, partizanlıqlar mütəşəkkil qaydada həyata keçirilmirdi, pərakəndə idi...**

- Əvvəlcə sizin dediyiniz kimi idi. Zamanla artıq Xocalı Özünümüdafiə batalyonu yaranmışdı. Postlarda növbəli şəkildə keşik çəkirdilər batalyonun əsgərləri. Bu batalyonun əsgərlərindən biri də Füzuli idi.

**- Məshəti türkü, "Azərbaycan bayrağı" ordenli Sərvər Rəcəbov həmin batalyonun komandiri idi?**

- Yox, Sərvər müəllim qərargah rəisi idi. Batalyonun komandiri o zaman Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynov idi. Sərvər müəllim Xocalıdan sonra batalyonu yenidən yaradıb komandir kimi döyüşlərə qatılmışdı (mən Nazimlə bu söhbəti apararkən Sərvər Rəcəbov hələ sağ idi. Ölümündən iki gün əvvəlsə Nazimlə birlikdə onunla görüşüb müsahibəsini yazdım. Növbəti yazılarda həm bu qəhrəman oğulu tanıyacaq, həm də onun Füzuli barədə dediklərini oxuyacaqsınız - N.Z.).

**- Mobil döyüşləriniz olurdumu?**

- Deyim ki, qısa əməliyyatlar oldu. Problem həm də nədə idi? Özünümüdafiə batalyonunun 150 əsgəri var idi. Amma bu qədər əsgərin cəmisi beş nəfərdən birinə çatacaq silahı vardı. Xocalı milis bölməsi isə 58 nəfərlik heyətdən ibarət idi. Bunların da cəmi 18-19 silahı olurdu. Bizim orda mükəmməl bir silah bazamız yox idi. Erməniyə qarşı əməliyyat tədbirləri həyata keçirmək gücündə, iqtidarında deyildik. Kifayət qədər qumbaraatanlarımız var idi, onun da mərmisi yox idi. Təlimdə istifadə olunan mərmilər vermişdilər bizə. Xocalıda erməniyə qarşı apardığımız mübarizə yalnız qeyrətimizdən - Vətənimizə içdən bağlı olmağımızın məntiqi nəticəsi kimi ortaya çıxırdı. Başqa heç nə. Üstəlik hərbi təcrübəmiz yox idi, taktiki gedişlər edə bilmirdik. Amma qarşı tərəf uzun illər hazırlaşmışdı. 366-cı alayın köməyi də bir tərəfdən. Bu alayın 72 nəfərlik zabit-gizir heyəti vardı. Onların 52-si ermənilər idi. Deməli, bu hərbi hissə erməniləşmiş bir hərbi hissə idi. 1990-cı ildə Bakının Biləcəri qəsəbəsində yerləşən, komendant saatına nəzarəti bilavasitə həyata keçirən Daxili Qoşun birləşməsi də Xankəndiyə dislokasiya olunmuşdu. Bu alayın 120-dən yuxarı zirehli texnikası var idi: BTR, BMP və s. Çox yerdə bunlar qeyd olunmur. Yalnız 366-cı alay qeyd olunur. Bu hərbi hissə 1991-ci ilin sentyabr ayında Xankəndini tərk edərkən onların silahları, texnikası hamısı erməniyə təhvil verildi. Görün bunlar nə boyda qüvvəyə malik idilər. Amma Xocalıda komendant saatı bəhanəsi ilə ov tüfənglərimizi də yığmışdılar. Bəhanəsi isə Xocalıya hücum edib xeyli xəsarətlər yetirən, ot tayalarımızı odlayan ermənilərin hərəkətlərinə qarşılıq verməyimiz olmuşdu. Xocalı əliyalın bir vəziyyətdə qalmışdı. Təbii ki, bizim təkbaşına erməniyə gücümüz çatmazdı. Amma biz nəyə ümidliydik?! Qoçların boğazına qırmızı lent bağlayıb Azərbaycan əsgərinin Əsgəranı alıb Xocalıya gələcəyi günü gözləyirdik ki, bu qurbanları onların ayaqlarının altında kəsək.

### Biz qırmızı lentli qoçları qurban kəsmək istərkən...

**- Bəs onlar niyə gəlmədi? Komanda gözləyirdilər?**

- Komanda gözləyirdilər. Amma komanda da gəlmədi. Görünür, bunun arxasında çox ciddi bir xəyanət əməli gizlənib. Nəticədə görün nələr yaşandı...biz qurban kəsməyə hazırlaşarkən, əksinə bizim uşaqlarımız, igid oğlanlarımız ermənilərin ayağının altında qurbana çevrildi. Xocalının təhlükəsizliyi düşünülməli idi. Bizə kömək vermirdilər, heç olmasa silah göndərəydilər. Xankəndinin ətrafındakı azərbaycanlılar yaşayan kəndlərin bir-birinin ardınca yandırılıb-boşaldılması Xocalı faciəsini labüdləşdirirdi. Bircə qalırdı faciənin baş verəcəyi gün. Bax, bu günü biz dəqiq bilmirdik.

- Qadınları, uşaqları çıxarmaq olmazdı?

***(ardı var)***

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***



**Nazim:** *"Həmin Kətikdə 70 il öncə də qadınları süngüyə keçirib Qarqar çayına tökmüşdülər"*

*Torpaq suyla qarışanda palçıq, qanla qarışanda VƏTƏN olur!*

***"Diriliş Ərtoğrul" serialından***

# Azərbaycan qadınlarına yerin altında və üstündə ağır işlərdə çalışmağı rəva görən Komitənin təklifinə ekspert rəyləri çox maraqlı oldu...

**Mövcud qanunvericiliyə görə, Azərbaycanda qadınların ağır və zərərli əmək şəraitində işləməsi, onların fiziki gücü xaricində olan işlərlə məşğul olması qadağandır. Hətta Əmək Məcəlləsindən irəli gələrək Nazirlər Kabineti 1999-cu ildə "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yerlatı işlərin siyahısı"nı təsdiqləyib.**

Bu siyahıda qadın əməyinin tətbiqinin qadağan olunduğu 600-ə qədər iş yerinin adı qeyd edilib. Siyahıdakı iş yerləri kənd təsərrüfatı, emal və qida sənayesi, neft-qaz hasilatı, metallurgiya sahəsi və s. sahələrə aiddir. Həmin sahələrdəki işlərin əksəriyyəti məhz ağır yükqaldırma, zərərli maddələrin istehsalı ilə əlaqəlidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova mətbuata bildirib ki, Azərbaycanda bütün qadınların əmək şəraiti zərərli və ağır olan iş yerlərində işləməsi ilə bağlı qoyulan məhdudiyyətin aradan qaldırılması, yalnız hamilə və himayəsində 3 yaşınadək uşağı olan qadınların belə iş yerlərində işləməsinə qadağa qoyulması üçün təkliflər hazırlanır.

T.İbrahimovanın sözlərinə görə, Əmək Məcəlləsinə əsasən, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin tətbiqi qadağandır.

Əmək Məcəlləsindən irəli gələrək Nazirlər Kabinetinin 1999-cu ildə təsdiqlədiyi "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yerlatı işlərin siyahısı"nı şərh edən T.İbrahimova qeyd edib ki, hazırda bu siyahının ölkədəki əmək qabiliyyətli bütün qadınlara şamil edilir. O, həmçinin vurğulayıb ki, siyahının təsdiq edildiyi vaxtdan sonrakı müddətdə bəzi peşələr üzrə istifadə edilən avadanlıq və texnika müasirləşib. Buna görə də artıq həmin işlərə ağır iş yerləri demək olmaz:

"Bu gün həmin o siyahıda göstərilən bəzi peşələr üzrə avadanlıqlar, texnikalar müasirləşdiyindən qadınlar üçün həmin iş yerlərində kişilərlə bərabər işləməsinə qadağa qoya bilmərik. Çünki, bu, özü ayrı-seçkiliyə gətirib çıxarır. Bu amilləri nəzərə alaraq, "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeralatı işlərin siyahısı"nın yenilənməsi vacibdir. Qadın əməyinin tətbiqinin qadağa olunduğu iş yerlərinin də bütün qadınlara deyil, yalnız hamilə və himayəsində 3 yaşınadək uşağı olan qadınlara aid edilməsi düzgün olar"-deyə bildirən T.İbrahimovanın sözlərinə görə, həm Avropa Şurası, həm digər beynəlxalq təşkilatların ekspertləri Azərbaycan qanunvericiliyininin təhlilini apardıqdan sonra ölkəmizə də bu məsələyə baxılaraq qadağanın yalnız hamilə və himayəsində körpə uşağı olan qadınlara şamil edilməsini tövsiyə edib.

O, artıq Moldova, Ukrayna qanunvericiliyində bu istiqamətdə dəyişikliklərin olduğunu, hazırda Qazaxıstan, Özbəkistan, Tacikistan, Gürcüstanda, Qırğızıstanda bu məsələyə baxıldığını da vurğulayıb.

Komitə rəsmisi əlavə edib ki, Əmək Məcəlləsinin 241-ci maddəsinə əsasən, qadınların müəyyən edilmiş normalardan artıq ağır əşyaların qaldırılması və bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsi də qadağandır. Məcəllə əsasında qadınların ümumi çəkisi 15 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması, 10 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq hündürlüyə qaldırılması və əl ilə qaldırılıb başqa yerə daşınması, 15 kiloqramdan artıq gücün sərf edilməsi tələb olunan yüklənmiş təkərli araba və ya hərəkət edən digər vasitələrlə əşyaların daşınmasına icazə verilmir:"Yəqin ki, müasir texnologiyanın tətbiqi ilə əlaqədar olaraq, gələcəkdə Əmək Məcəlləsində bu qadağaların da aradan qaldırılmasına baxıla bilər".

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova "Bakı-Xəbər"ə bildirdi ki, bu addımın atılması zəruridir. O, həmçinin dedi ki, bu könüllülük şəraitində olacaq:"Komitənin hazırladığı təklif qüvvəyə minərsə bu o demək deyil ki, qadınların hamısı ağır işlərdə çalışa bilər. Yəni bu məcburi deyil, amma ola bilsin ki, kimsə gedib işləmək istəyir. Gender bərabərliyi ilə bağlı çağırışlar edilərkən burada qadınlarla kişilərin bütün sahələrdə bərabər çalışmaları da qeyd edilir. Təklif qəbul edilərsə bu qadınların məcburən ağır işlərə cəlb edilməsi demək deyil, sadəcə bu qadınlara seçim etmək imkanı verəcək. Elə qadınlar var ki, mən ev təmirində işləmək istəyir, başqa birisi çilingər kimi fəaliyyət göstərmək arzusundadır, yaxud başqa bir qadın "kişilərin gördüyü ağır işləri görmək mənim üçün problem deyil" deyir. Bilirsiz, elə sahələr var ki, orada yalnız kişilər işləyir və bu da qadının seçim imkanlarını məhdudlaşdırır. Qadın nə üçün mağazada işləməlidir, yaxud müəllim olmalıdır. Yeni təklif qadınlar üçün kişilərlə barabər çalışmaq imkanları yaradır".

Konstitutsiya Araşdırmalar Fondunun rəhbəri, tanınmış hüquqşünas Əliməmməd Nuriyevin sözlərinə görə, Komitənin belə bir təklif hazırlaması beynəlxalq təşkilatların ölkəmizin qarşısına qoyduğu tələblərdən irəli gəlir. "Azərbaycanda Nazirlər Kabinetinin müvafiq qərarı var və həmin qərara əasən xeyli sayda peşədə qadınların işləməsi qadağan edilib. Qadınlarla bağlı bu sahədə müəyyən məhdudiyyətlər var. Eyni zamanda Əmək Məcəlləsində də qadınların bəzi peşələrdə işləməsinin yolverilməzliyi qeyd edilib. Bu isə Azərbaycan qanunvericiliyinə ziddir. Birincisi, burada qadınlarla və kişilərin bərabərliyi, gender bərabərliyi məsələsi, "Gender bərabərliy haqqında" Qanun, bütün vətəndaşların qanun qarşısında bərabərlik prinsipləri məsələsi var. Digər tərəfdən də, Azərbaycan bir sıra beynəlxalq konvensiyalara qoşulub və həmin konvensiyaları da radifkasiya edib. Həmin konvensiyalara qoşulmaqla Azərbaycan dövləti üzərinə öhtəliklər götürüb. Onlardan biri də, qadınlara qarşı bütün növ ayrı-seçkiliklərin aradan qaldırılması ilə bağlı BMT-nin konvensiyasıdır ki, ölkəmiz həmin konvensiyaya da qoşulub. Bu tələblərdən biri də qadınların əmək hüququnun tam təmin edilməsi, müxtəlif peşələrdə qadınlara qarşı diskriminasiyaya yol verilməməsindən əlaqədardır. Azərbaycanın müvafiq beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhtəlikləri nəzərə alaraq düşünürəm ki, Komitənin hazırladığı təklif vacibdir və bu müvafiq qanunvericilikdə öz əksini tapmalıdır. Bəli, məhdudiyyətlər aradan qaldırılmalıdır, həmin peşələri seçib seçməmək, orada işləyib işləməmək isə qadının öz seçimi olmalıdır, buna görə ona qadağalar tətbiq edilməməlidir".

Ə.Nuriyev qeyd etdi ki, rəhbərlik etdiyi Konstitutsiya Araşdırmalar Fondu, eləcə də, Hüquq və İnkişaf İctimai Mərkəzi ilə birgə Bazar İqtisadiyyatına Yardım Fondunun layihəsi çərçivəsində qadınların sosial inkişafı ilə bağlı bir araşdırma da həyata keçiriblər.

"Biz tədqiqat aparıb araşdırdıq ki, hansı sahələrdə qadınların işləməsinə qadağa qoyulur. Biz dünya təcrübəsini öyrəndik. Artıq dünyanın əksər ölkələrində bu problem həll edilib. Bu keçmiş Sovet hökümətindən qalma bir ənənədir. Xüsusən də qadınların hüquqlarını qoruma halları kimi qələmə verilirdi. Əslində isə bu disskriminasiya xarakteri daşıyırdı. Biz bu sahədə hüququ tanımalıyıq, amma o hüquqdan istifadə etmək isə artıq qadının öz öhtəsinə düşən məsələdir. Bu mənada düşünürəm ki, əlbəttə, bu məsələ ilə bağlı Əmək Qanunvericiliyində dəyişikliklər edilməlidir"-deyə Ə.Nuriyev vurğuladı.






***Mehriban Zeynalova:** "Təklif qəbul edilərsə bu qadınların məcburən ağır işlərə cəlb edilməsi demək deyil, sadəcə bu qadınlara seçim etmək imkanı verəcək"*

***Əliməmməd Nuriyev:** "Azərbaycanın müvafiq beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəlikləri nəzərə alaraq düşünürəm ki, Komitənin hazırladığı təklif vacibdir və bu müvafiq qanunvericilikdə öz əksini tapmalıdır"*

***İradə SARIYEVA***

№ 45 (4176) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

13 MART 2020-ci il

www.baki-xeber.com



# Buzlar əridi, Vikinqlərə məxsus 1500 yaşlı ox ucu üzə çıxdı

**Norveçin şimalında iqlim dəyişikliyi səbəbiylə buzların əriməsi tarixi tapıntının üzə çıxmasına səbəb olub.**

"Milli.Az" xəbər verir ki, buzların altında Vikinqlərə məxsus ox ucu aşkar edilib. Məlumata görə, xarici görünüşünü saxlayan ox ucunun 1500 il əvvələ aid olduğu bildirilir. Metal parçasının uzunluğu 18, eni isə 2 santimetrdir. Çəkisi 30 qram olan metal parçası tarixçilərin nəzarətinə götürülüb. Qeyd edək ki, ox ucunu təsadüfən ərazidən keçən çoban tapıb.

## Güclü radio siqnal yaradan planet aşkarlandı

**Beynəlxalq astronomlar qrupu ana ulduz GJ1151-in maqnit sahəsi ilə qarşılıqlı əlaqəsi nəticəsində güclü radio siqnallar yaradan ekzoplanet tapıb.**

"Milli.Az" xəbər verir ki, bu barədə "Science Alert" məlumat yayıb. Tədqiqatçılar aşağı radio tezliklərində səmanı skan edən LOFAR radio interferometrindən istifadə edərək müşahidələr aparıb. Və yerdən 26 işıq ili məsafəsində yerləşən qırmızı cırtdanda ekzoplanetin olduğunu göstərə biləcək radiasiya kəşf ediblər. Planet və ulduz arasında qarşılıqlı təsir Yupiterdə və İonun peykində müşahidə olunur. Aşağı tezliklərdə böyük gücə sahib ola bilən dairəvi qütblü radiasiyaya səbəb olur. Sarı cırtdanlara aid Günəşin maqnit sahəsi kifayət qədər güclü deyil və oxşar səmərəni vermək üçün planetlər ondan çox uzaqdır. Qırmızı cırtdanlarda maqnit sahəsi daha güclüdür. Elm adamları GJ1151 ətrafında başqa ulduzun fırlanmasının, buna bənzər effekti verə biləcəyini istisna edib. Tədqiqatçıların fikrincə, aşkar etdikləri ekzoplanet qayalıqdır və 1-5 gün ərzində ulduz ətrafında fırlanır.

## Elan

Mehdiyev Müseyib Əyyub oğlunun adına, Novxanı kəndində yerləşən torpaq sahəsinin çıxarışı (reyester nömrəsi 308-013099518) itdiyi üçün etibarsız sayılır.

Orucov Yusif Məhərrəm oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, M.Məmmədov küçəsi, 17 b saylı fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi (Seriya FM N015002) itdiyi üçün etibarsız sayılır.

Quliyev Şaban Babakişi oğlunun adına, Qaradağ rayonu, Qobustan qəsəbəsi, massiv 5, ev 6 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Kazımov Etibar Qurban oğlunun adına "İJ-12" 16 çaplı ov silahı itdiyi üçün etibarsız sayılır.

Heydərov Murad Şahbaba oğlunun adına, Xaçmaz rayonu, Xudat şəhərində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı (JN:0051 kod 30202008) itdiyi üçün etibarsız sayılır.

Ələkbərov Mehman Fehruz oğlunun adına əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Hacıyev Nuru Əmir oğlunun adına (M/V 031711) nömrəli 19.05.1999-cu ildə verilmiş "Qarabağ Müharibə" veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## Koronavirusa yoluxan 100 yaşlı kişi sağaldı

**Çində 100 yaşında koronavirusa yoluxan kişi sağalıb. Bu barədə "Xinhua" xəbər yayıb.**

"Oxu.az" xəbər verir ki, soyadı Vanq olduğu bildirilən xəstənin həmçinin yüksək təzyiq və ürək çatışmazlığı problemləri var, Altsheymer xəstəliyindən əziyyət çəkir. Bildirilir ki, bu kişi xəstəliyə qalib gələn ən yaşlı pasiyentdir. Tibb işçiləri hadisəni "möcüzə" adlandırıblar.

## Yaponiyanın Kosmik Məkanın Tədqiqi Agentliyi Marsın peyki Fobosu tədqiq edəcək

**Yaponiyanın Kosmik Məkanın Tədqiqi Agentliyi (JAXA) Marsın peyki Fobosu tədqiq edəcəyi barədə planlarını açıqlayıb. "AZƏRTAC" xəbər verir ki, JAXA-nın Marsın peykinə göndərəcəyi kosmik zond Fobosdan götürəcəyi suxur nümunələrini Yerə çatdıracaq.**

Bildirilir ki, bununla əlaqədar plan Yaponiya Təhsil, Mədəniyyət, İdman, Elm və Texnika Nazirliyinin mütəxəssisləri tərəfindən bəyənilib. Məlumat üçün qeyd edək ki, marsın Fobos və Deymos adlı iki peyki var. Tədqiqat məqsədilə zondun Fobosa 2024-cü ildə göndərilməsi və onun götürəcəyi suxur nümunələrinin 2029-cu ildə Yerə çatdırılması nəzərdə tutulur. Bu, ilk belə missiya olacaq. Alimlər bu tədqiqatla Marsın peyklərinin yaranmasına və Günəş sisteminin planetlərinin formalaşmasına aydınlıq gətiriləcəyinə ümid edirlər.





**Qoç** - Yaradıcılıq, ixtiraçılıq ruhu günüdür. Dəyişikliklər və yeniliklər zamanının çatdığını intuitiv hiss edirsiniz. Dəyərli və layiqli hədəf seçin, prosesi sürətləndirin. Yeniliklərə və sürətli, ani qərarlara hazır olun.



**Buğa** - İzafi səy göstərməyin, çünki əsas məqsədə çatmaq asan deyil. Ən optimal davranış modeli qarşılıqlı mənfəət nəzərə alınmaqla sövdələşməkdir. Axşam saatlarında yaxşıca dincəlin.



**Əkizlər** - Maddi sərfiyyat və xərclər tələb edən planlarınız var. Gəlir mənbələrinin sayını artırmaq və mümkün qədər az vaxt sərf edərək çox iş görməyin yollarını düşünün. Maraq dairəniz genişlənir.



**Xərçəng** - Ümumi iş və hətta çətinliklərin sizi birləşdirdiyi insanla ünsiyyət daha asan olacaq. Yanlışlıqlar və səhvlər üzərində birgə iş situasiyanı tədricən düzəldəcək, soyuqluğu aradan qaldıracaq, yaxınlaşmaya səbəb olacaq.



**Şir** - Başqa istiqamətdə baş verəcək hadisə sizi sevindirəcək. Fəaliyyətnizin maliyyə məqamlarına xüsusi diqqət ayırın. Günün ikinci yarısında fiziki işlə məşğul olun.



**Qız** - Fəal olun, təxirəsalınmaz işləri başa vurun. Münasibətləri aydınlaşdırmağa çalışmayın, çünki, izafi aşkarlıq bu gün kimsəyə xeyir verməyəcək. Prioritetləri yenidən dəyərləndirin, planlara dəyişikliklər və əlavələr edin.



**Tərəzi** - Zirək olmaq istəyirsinizsə, öz üzünüzü başqalarının aynasında görməyə çalışın. Sizin üçün dəyərli olan nəsnələr - hisslər, münasibətlər, maddi vəsait və resurslar bu gün sınağa məruz qalacaq.



**Əqrəb** - Gözləntilərinizdə aldanmayın. Tələb, iddia səviyyəsini aşağı salın. Adətən, problemlər və anlaşılmazlıqlarla qarşılaşdığınız görüşə qatılmayın. Hisslər və emosiyalar müstəvisində böhran var.



**Oxatan** - Karmik düyünlər aşkarlanacaq, önəmli münasibətlərin məğzinə yeni baxışa imkan verən hadisələr baş verəcək. Qərarları siz qəbul edirsiniz. Amma tərəfdaş, iş yoldaşı və ya şərikin reaksiyasına diqqətlə fikir verin.



**Oğlaq** - Reaksiyanız dəqiq və adekvat olmalıdır. İmkanlarınızı olduğundan artıq dəyərləndirməyin. Hansısa məsələdə tam əmin deyilsinizsə, o məsələni təxirə salın. Borc almayın, yerinə yetirə bilməyəcəyiniz vədlər verməyin.



**Dolça** - Çevik və qıvraq, mütəhərrik olun, işinizin detallarına xüsusi fikir verin. Ev işlərinə və yaxınlarınızla münasibətlərə laqeyd qalmayın. Ailə üzvlərini birləşdirəcək mövzu və ya məşğuliyyət tapsanız, axşam saatları sakit keçəcək.



**Balıqlar** - Yeni imkanlar yaranır və onlardan istifadə etmək gərəkdir. Bununla belə, bədxahlarınız arasında kimsə sizə mane olmaq üçün xüsusi aktivlik göstərir. Çalışacağınız sahəni, əldə etməyə çalışdığınız nəsnəni müəyyənləşdirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Orqanizmi təmizləyən məhsullar açıqlandı



**Orqanizmi şlak və toksinlərdən təbii vasitələrlə də təmizləmək mümkündür.**

"Qafqazinfo" xəbər verir ki, bunun üçün "düzgün" meyvə və tərəvəzdən bol yemək yetərlidir. Diyetoloqların sözlərinə görə, alma orqanizmdən zərərli maddələri tez bir zamanda çıxara bilir. Lakin onları lif və vitaminlərlə zəngin olan qabıqları ilə bərabər yemək lazımdır. Liflə ağ kələm də zəngindir. Bundan başqa, onun tərkibindəki kükürdü qaraciyər süzgəc kimi istifadə edir. "Detoks-liderlər"in üçlüyünü baş soğan yekunlaşdırır. O, tərkibindəki aminoturşular sayəsində toksinlərlə səmərəli mübarizə aparır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.